Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

7-ci cild

1 noyabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# I SESSİYASI İCLASININ

# PROTOKOLU № 8

*Milli Məclisin iclas salonu.*
*1 noyabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 120 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 113 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
2. "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
3. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxu-

nuş).

4. “Arbitraj haqqında” Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

5. “Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

6. “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanu-

nunun layihəsi (ikinci oxunuş).

9. “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Fazil Mustafa, Naqif Həmzəyev, Rafael Hüseynov, Müşfiq Məmmədli, Əziz Ələkbərov, Əli Məsimli, Ceyhun Məmmədov, Razi Nurullayev, Siyavuş Novruzov, Hikmət Məmmədov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**1. “Əhalinin sağlamlığının qorunması haqqında” və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiras-

lanov, Səyyad Salahlı, Vüqar Bayramov, Elşad Musayev, Aqil Abbasov, Rəşad Mahmudov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

**2. "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Fariz İsmayılzadə, Siyavuş Novruzov, Aydın Mirzəzadə, Azay Quliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

**3. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
| Lehinə | 112 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verdmədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 3-cü maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

## 4. “Arbitraj haqqında” Azərbaycan Respublikasının

**2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamran Bayramov, Musa Quliyev, Azər Əmiraslanov, Şahin İsmayılov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7–9-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** 10-cu və 11-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**5. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Fazil Mustafa, Siyavuş Novruzov, Ziyafət Əsgərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**6. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova, Zahid Oruc, Nigar Məmmədova, Vüqar İskəndərov, Rafael Hüseynov, Hikmət Məmmədov, Siyavuş Novruzov, Erkin Qədirli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**7. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Hicran Hüseynova, Razi Nurullayev, Arzuxan Əli-zadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

**8. "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyi-**

**şiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əminə Ağazadə, Siyavuş Novruzov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–7-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

| | |
|---|---|
| **Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**9. “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Qüdrət Həsənquliyev, Rafael Hüseynov

| | |
|---|---|
| **Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

| | |
|---|---|
| **Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 3–5-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*1 noyabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Salam, hörmətli deputatlar, hamınızı xoş gördük. Media nümayəndələrini də salamlayıram.

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 113 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlaya bilərik. Xahiş edirəm, gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

Səs verməndi 1
İştirak edir 108
Nəticə: Qəbul edildi

Gündəlik qəbul edildi, çox sağ olun.

Cari məsələlərlə bağlı kim danışmaq istəyirsə, buyursun, yazılsın. Zahid Oruc. Buyurun.

**Zahid Oruc**. Hörmətli sədr. Neft ölkəsi olduğumuz üçün qlobal iqlim sammiti qarşısında Azərbaycanı ittiham edənlər son 200 ildə dünyada atmosferə ən çox karbon tullantıları atan dövlətlərdir. Mötəbər axtarış sistemi “Google Scholar”a görə daş kömür, qaz və neft kimi qalıq yanacaqlardan istifadə ilə yüksək sənayeləşmə və əhali artımı nəticəsində istiləşmə böhranını yaradan 5 ölkə – Çin, ABŞ, Hindistan, Rusiya və Yaponiya tarixdə rekord həddə, 37 giqaton karbon emissiyasının 60 faizini yer kürəsinə yayan ölkələrdir. Yaxın Şərq, Qəzza, İraq, Suriya və Ukrayna müharibələrinin də səbəbi “yaşıl” deyil, “qara rəngli”, iqtisadi, geosiyasi imperiyalar qurmaq niyyətidir. Qlobal çirklənmənin və Antarktidanın 100 illik buzlarının əriməsinin də günahkarı biz deyilik. Dünyanı nüvə müharibəsinə çatdıranlar nəhəng medialarının əli ilə məsuliyyəti başqasının üstünə atıb yeraltı sərvətlərinə görə ölkəmizi günahlandırmasınlar.

Biz COP və Qarabağ siyasətində bir çox dövlətin eyni simasızlığını görürük. Son 34 ildə yüz milyonlarca ton neft və qaz ehtiyatımızı çıxaran, onu Avropa bazarlarına daşıyan, nəhəng sənaye müəssisələrində istehlak edən də transmilli Qərb şirkətləridir. Avropa Birliyini ölkəmizə qarşı sanksiyaya çağıranlar evlərində yanan Azərbaycan qazını söndürüb soyuqdan dona bilərlər, lakin enerji inhisarçıları –

“BP”, “Chevron”, “ExxonMobil” və “TotalEnergies”in fəaliyyətini dayandırmağa gücləri çatmaz.

Prezident İlham Əliyev alternativ enerjini ölkəmizin əsas milli kursu elan edib. Qoy Qərb dövlətləri də bizə xalis sıfır texnologiyalı məhsulları satsınlar. Embarqo və sanksiyalarla dünyada “yaşıl terror” siyasəti aparan ölkələr günəş panellərini və külək turbinlərini ucuz qiymətə istehsal edən ölkələrin qarşısında ticarət baryeri yaratmasınlar. Unutmayaq ki, 29 il əvvəl, 1995-ci ildə COP-un ilk konfransının təşkil olunduğu Almaniyada enerji keçidinə qarşı böyük dağ-mədən, kimya, daş kömür sektorlarında çalışan yüz minlərcə işçi etiraza qalxmışdı. Ölkəmizdə neft əvəzinə günəş və külək enerjisi olmasın deyə, küçə və meydanlara çıxan yoxdur. Ona görə də bizi neft-qaz gəlirlərindən məhrum etməyə, “yaşıl Azərbaycan” kursundan çəkindirməyə çalışanlar bütün Yer kürəsində dözülməz siyasi iqlimi düzəltməyə məhz Bakıdan başlasınlar. Axı, Qarabağ hadisələri də ekoloji mənbədən, Topxana meşəsindən alovlanmışdı və elə orada da söndürüldü. Biz zoribalayanların düşmənçilik ocağını qayıdış və varlıq işığı ilə əvəz edirik. Biz azad torpaqlarda “yaşıl vətən” qururuq.

Qoy 44 günlük müqəddəs savaşda olduğu kimi, hər bir azərbaycanlı Amerikadan Avropaya qədər istismar olunan milyonlarca ton neftin hesabını o dövlətlərdən soruşsun. İqlim sammitini sülh zirvəsinə çevirməyə çalışan İlham Əliyevi müdafiə etmək Vətən müharibəsində qələbəmizi qorumaq deməkdir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, media nümayəndələri. Bildiyiniz kimi, bu gün-

lərdə yunan-Roma güləşi üzrə Azərbaycan milli komandası tarixində ikinci dəfə dünya çempionu oldu və Azərbaycan oğlu Eldəniz bəy Əzizli orada dördüncü dəfə dünya çempionu oldu. Bu, Məhiyəddin Allahverdiyevdən sonra təkrarlanan ən böyük nəticəmizdir. Hacı Əliyevin də təmsil etdiyi, artıq əvvəlki kimi iştirak etmədiyi bu yarışda sərbəst güləşçilərimizin heç biri finala çıxa bilmədi. Amma burada bizim üç nəfər azərbaycanlı qızıl medal qazandı. Mən onları təbrik edirəm, böyük qəhrəmanlıqdır.

Amma həm də diqqəti bir problemə çəkmək istəyirəm. Niyə sərbəst güləşimiz indi müəyyən dərəcədə tənəzzülə doğru getdi? Bu, legioner məsələsi ilə bağlıdır. Əgər biz hər hansı sistemimizi legionerlər üzərində qururuqsa, bu uğurun davamı gəlmir. Klassik güləşdə məşqçi Elçin Cəfərovun səyləri nəticəsində uzun illər milli kadrlardan ibarət güləş komandası formalaşdığına görə bu uğuru davam etdirə bildik. Legioner bir neçə ildən sonra çıxıb gedir, məktəb yarada bilmir və nəticədə də bu uğursuzluqlar gəlir. Futbolda da bunu gördük. Futbolda xeyli sayda milliləşmiş futbolçumuz oldu. Amma bu gün milli komandada onların sayını müəyyən etmək çox asandır. Bir nəfər olur, bəlkə də heç olmur. Nəticə də nədir? Dünyanın əksər ölkələrində 70 gürcü futbolçu yüksək divizionda çıxış edir. Bir Azərbaycan futbolçusu dünya komandalarının, dünya çempionatlarının heç birində iştirak edə bilmir. Yəni dünyaya transfer olunacaq futbolçu yetişdirə bilməmişik. Biz bunun səbəblərini mütləq müzakirə etməliyik. Çünki bu, təkcə bizim milli komandaların taleyi deyil, Azərbaycanın imici məsələsidir.

Bir nüansa da diqqət çəkmək istəyirəm. Biz çox sayda orta məktəblərə, universitetlərə baş çəkirik. Maraqlıdır ki,

məsələn, Eldəniz Əzizli 4 dəfə, Hacı Əliyev 3 dəfə dünya çempionu olub, heç birinin girişində onların şəklini görməzsən. Çox sevindiricidir ki, bizim şəhidlərimizin hamısının şəkilləri var. Bu sevindiricidir. Uşaqlar baxırlar, örnək götürürlər ki, vətən üçün qəhrəmanlıq edənlər unudulmur. Amma biz yaşayan qəhrəmanlarımızı niyə nümunə göstərmirik? Ona görə də baboşlar, mamoşlar, kimlər, bunların təbliğatı gedir. Ona görə də baxanlar bunların üzərindən həyata baxırlar. O baxımdan da, məncə, biz bunu bir sistemli şəkildə etməliyik ki, doğrudan da, Azərbaycan Bayrağını qaldıran hər bir kəsin adı o məktəbə, o universitetə girən uşağın gözündə ona oxşamaq baxımından stimullaşdırıcı bir ad olsun. Biz bunlara diqqət etməliyik. Məncə, bu bizim işimizin xeyrinə olardı. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Naqif Həmzəyev. Buyurun.

**Naqif Həmzəyev.** Hörmətli xanım sədr, mənə söz verdiyinizə görə dərin təşəkkürümü bildirirəm. Nəzərinizə çatdırım ki, son illərdə Azərbaycanda nəqliyyat infrastrukturu təkmilləşdirilir və şükürlər olsun, artıq Gəncə şəhərinə Bakıdan müasir avtobuslarla sərnişindaşıma həyata keçirilməyə başlanıbdır. Eyni zamanda, bilirsiniz ki, sürətli qatarların da sayı artıq iki dəfəyə qədər artırılıbdır. Fürsətdən istifadə edib, bütün seçicilər və sərnişinlər adından möhtərəm cənab Prezidentə dərin təşəkkürümü bildirirəm.

Ancaq bəzi texniki problemlər var ki, mən düşünürəm, mütləq həll etmək lazımdır. Biz həftədə bir dəfə sürətli qatardan istifadə edirik və seçicilər də elə birbaşa orada bu problemləri bizim qarşımızda qaldırırlar. Çox təəssüflər olsun ki, hazırda sərnişinlər bilet aldıqda yalnız 23

kiloqram baqaj haqları var. Çox təəssüflər olsun ki, onlara qatara ikinci çantanı keçirmək və yaxud əlavə bir yük daşımaq üçün imkan vermirlər. Bu da çox böyük narazılığa səbəb olur. Əgər Siz özünüz də maraqlansanız, görərsiniz ki, məhz sərnişinlər qatara minəndə çoxlu sayda problem olur. Polis məsələyə qarışır və dəfələrcə mən özüm də o prosesin içində olmuşam. Heç bir kömək edə bilmirik. Hətta sonradan bizdən xahiş ediblər, bəzilərinin əl yüklərini özümüz keçirməli olmuşuq. Çünki seçicidir, yaşlı qadındır, biz "yox" deyə bilmirik. Mən çox xahiş edirəm, mümkündürsə, məhz aidiyyəti qurumlar ən azından ödənişli olaraq ikinci yükün keçirilməsinə şərait yaratsınlar. Çünki bu, dünya təcrübəsində var. Yəni bilet alır, bir baqaj keçirmək hüququ var. İkinci, üçüncü baqajı keçirmək üçün də, mən düşünürəm ki, onlara ödənişli olaraq bu fürsəti tanıya bilərlər.

Eyni zamanda, bilirsiniz ki, bir çox beynəlxalq hava limanlarında, elə Azərbaycanın hava limanlarında bir çox rəsmi şəxslərin xüsusi zallarda gözləmə hüquqları var. Ancaq çox təəssüflər olsun ki, "Azərbaycan Dəmir Yolları" QSC eyni hüququ aidiyyəti şəxslərə tanımır. Yalnız biznes-klasa bilet alanda xüsusi gözləmə zallarından istifadə etmək olur. Mən düşünürəm ki, bu da texniki bir problemdir, bunu də həll etmək olar. Xüsusi ilə məncə, COP ərəfəsində biz bu imkanları daha da artırmalıyıq. Yəni ola bilər ki, sərnişinlər ödəniş edib istənilən imkanlardan istifadə etmək istəyirlər. Məncə, bu məsələlərə də biz liberal yanaşmalıyıq.

Ancaq açıq deyim ki, qatarların bu cür keyfiyyətli olması, ümumilikdə, bizi çox qane edir. Demək olar ki, xüsusi ilə də qərb regionunda artıq rahatçılıq var. İnanırıq

ki, yaxın zamanlarda biz Xankəndiyə də, Lənkərana da məhz sürətli qatarla səfər edə biləcəyik. Diqqətinizə görə təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Naqif müəllim, ümumiyyətlə, maraqlanmısınız, nəyə görə qoymurlar? Bəlkə qadağa texniki məsələlərlə bağlıdır?

**Naqif Həmzəyev**. Maraqlanmışıq, ciddi bir səbəb göstərə bilmirlər. Bu gün mən aidiyyəti qurumlara rəsmi müraciət də edəcəyəm. Çünki faktiki olaraq biz onlara bu imkanı tanıya bilərik. Sadəcə olaraq, istəyirlər ki, bir baqajla keçsinlər. Ancaq mən düşünürəm ki, ödəniş edib ikinci, üçüncü baqajı da apara bilərlər. Burada heç bir problem yoxdur. Çünki qatarlar müasir tələblərə cavab verir.

Sadəcə olaraq, bəzi insanlar var, bir biletlə daha çox yük aparmaq istəyirlər. Bu qadağanı onun qarşısını almaq üçün tətbiq ediblər. Ancaq bunu, məncə, ödəniş üsulu ilə tənzimləmək olar. Çünki tələbə yanına gələn var, valideynlər var ki, öz övladlarının yanına, yaxud Bakıya qonaq gəlirlər. İstər-istəməz biz onlara qadağan edə bilmərik. Çünki dədə-babadan onlar həmişə yüklə gəliblər.

**Sədrlik edən.** Yaxşı, bu, dərhal həll olunacaq məsələ deyil. Ancaq mən düşünürəm ki, burada qadağalar hansı isə texniki məsələlərlə də bağlı ola bilər. Təbii, hamı istəyir ki, çox yük götürsün və sair. Ancaq imkan yoxdursa, olmaz. Oldu, sağ olun.

Rafael müəllim, Siz söz istəmişdiniz. Buyurun.

**Rafael Hüseynov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli millət vəkilləri. Mən də, bizim deputatların bir qismi də bilavasitə mətbuatdan gəldiyimizə görə, – əslində isə mahiyyətinə görə bütün Milli Məclis mətbuatla bilavasitə bağlıdır, mətbuata həmişə həssas münasibət

bəsləyir və bəsləməlidir, – biz istər Azərbaycan mətbuatında, istərsə də dünya mətbuatında cərəyan edən proseslərə laqeyd qala bilmərik. Son dövrlərdə dünyanın ən aparıcı, nüfuzlu nəşrlərindən olan "Washington Post"da dərc edilən bir sıra məqalələr təəccüb doğurur. "Washington Post" dünya mətbuatında böyük imzası olan bir qəzetdir. 147 yaşı var, dünyada demokratiyanın inkişafı, sülhün bərqərar olması, yüksək dəyərlərin dünya ölkələrində yayılması üçün zəhmət sərf edibdir, bu yolda böyük jurnalistlər çalışıblar. "Washington Post" qəzetinin devizi, əsas şüarı budur ki, "Democracy dies in darkness" – "Demokratiya zülmətə qərq olanda məhv olur". Amma mətbuat da təhriflərə, qəsdən faktları dəyişdirməyə, saxtakarlığa, qıraqdan təzyiqə və idarəetməyə məruz qalanda məhv olur.

"Washington Post"un 2023-cü il 11 oktyabr sayında Dağlıq Qarabağla bağlı yazı dərc edilib, sırf təhriflərlə doludur. 2024-cü il mart ayının 11-də boşaldılmış ərazilərlə bağlı yazı dərc edilib. İndi onlarla bağlı müəyyən təfərrüatları da deyəcəyəm. Təhriflərə, saxtakarlıqlarla, əyintilərlə doludur. 2024-cü il oktyabrın 16-da iqlim konfransı ilə bağlı yazı dərc edilib, siyasi təhriflər, qərəzli ittihamlar, yanlışlarla doludur. Oktyabrın 29-da COP-la bağlı daha bir yazı dərc edilib. Yenə Azərbaycana qarşı əsassız ittihamlar, erməniçilik mövqeyi ilə xarakterizə olunan baxışlar. Məsələn, 2024-cü il mart ayının 11-də boşaldılmış ərazilərlə bağlı dərc edilən yazı. "A cry for the refugees of emptied Nagorno-Karabakh. We are nobody". "Boşaldılmış Dağlıq Qarabağdan olan qaçqınlar üçün fəryad. Biz heç kimik" adlı bir yazıdır. Bu yazının müəllifi Devid İqnatyus Dağlıq Qarabağdan ermənilərin könüllü

köçüb getməsini etnik təmizləmə adlandırır. Ancaq hələ 2005-ci ildə Avropa Şurası 1416 saylı qətnamə qəbul etmişdi və dünya təşkilatları içərisində, beynəlxalq qurumlar arasında ilk dəfə azərbaycanlılara qarşı Ermənistanda etnik təmizləmə siyasəti aparıldığını açıq şəkildə bəyan etmişdi. Azərbaycanlılara qarşı ermənilərin törətdiyi etnik təmizləmələr, soyqırımları ilə bağlı faktlar da bütün dünyaya bəllidir. Onu yazırsansa, bunu da yaz.

Mən vaxtı ilə 10 il müddətində “Amerikanın səsi”nin müxbiri olmuşam və orada bir prinsip var idi. Mütləq iki tərəfin mövqeyi olmalıdır. İqtidar nə isə deyirsə, mütləq orada müxalifətin də mövqeyi olmalıdır və sonda da Dövlət Departamentinin mövqeyi. Yəni münsif olmaq istəyirsənsə, yalnız bu cür yanaşmalar lazımdır. Ancaq təəssüflər olsun, azərbaycanlılara qarşı törədilən bütün cinayətlər, 30 il ərzində Azərbaycan ərazilərinin, həqiqətən də, bir atom partlayışından sonra xarabazara çevrilmiş məkana döndərilməsi qalır bir tərəfdə və Azərbaycana qarşı “Washington Post” iddialar irəli sürür ki, guya Dağlıq Qarabağdakı abidələrə, mədəni irsə qarşı azərbaycanlılar çox mənfi, dağıdıcı münasibət bəsləyirlər. Birincisi, keçmiş Dağlıq Qarabağ ərazisində və bütün Azərbaycan ərazisində olan mədəni irs onun hansı millət, burada yaşamış hansı etnik qrup tərəfindən yaradılmasından asılı olmayaraq, Azərbaycanın sərvətidir və Azərbaycan bütün bunları qoruyur. Amma bunlardan daha əvvəl 100 mindən artıq Azərbaycan mədəni irs nümunəsi arxada qalan 30 il ərzində məhv edilib. Bəs bunların haqqında “Washington Post” niyə susur?

Ona görə də əgər bir mətbuat orqanı dünyada nüfuz qazanıbsa, mütləq o nüfuzu qorumalıdır. Çünki bu qa-

zanılmış nüfuzun arxasında böyük insanların zəhmətləri var. Biz heç vəchlə dözə bilmərik ki, – artıq mən burada bunu mətbuatın təəssübünü çəkən bir insan kimi söyləyirəm, – dünyanın tarixində, Amerikanın tarixində, dünya siyasəti tarixində iz qoymuş “Washington Post” kimi nüfuzlu bir qəzet bu gün kənardan idarə edilən, saxtakarlığa, təhriflərə xidmət edən və Vaşinqtonda ingilis dilində çıxan erməni qəzetinə dönsün.

**Sədrlik edən.** Sağ olun. Müşfiq Məmmədli. Buyurun.

**Müşfiq Məmmədli**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli media mənsubları. 2024-cü il oktyabrın 31-də cənab İlham Əliyevin prezident kimi ilk dəfə dövlətə və xalqa sədaqət andı içməsindən 21 il ötdü. Prezident İlham Əliyevin 2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimindəki çıxışı, əslində, Azərbaycanın gələcək yüksəliş yolunun manifesti idi. Andiçmə mərasimindəki nitqində cənab İlham Əliyev respublikamızın əsas milli hədəflərini, prioritet məqsədlərini bəyan etdi. Dövlət başçısı, eyni zamanda, bu hədəflərə doğru gedəcəyimiz yolların aydın və dəqiq konturlarını cızdı, bununla bağlı qarşımızda dayanan vəzifələri müəyyənləşdirdi.

Ötən 21 ilin reallıqları göstərir ki, Prezident İlham Əliyevin ilk dəfə andiçmə mərasimində qeyd etdiyi bütün məsələlər həyata vəsiqə alıb. Dövlətimiz öz hədəflərinə layiqincə çatıb. Məsələn, Azərbaycanın inkişafı ilə bağlı Prezident İlham Əliyev andiçmə mərasimində demişdi: “Azərbaycanda iqtisadi inkişaf proqramı hazırlanır. Bu çoxsahəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcəkdir. Bizdə bütün imkanlar – təbii sərvətlər, insan potensialı və ən

önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik”.

Bu illər ərzində Azərbaycanda vətəndaşların sosial rifah halının yüksəlməsi, maaş və pensiyaların dəfələrlə artması, 3600-dən çox məktəb binasının, 750-dən artıq tibb müəssisəsinin tikilməsi və ya əsaslı şəkildə təmir edilməsi, 40-dan çox olimpiya mərkəzinin və yüzlərcə idman qurğularının inşası, orbitə 3 peykin çıxarılması, 3000 meqavatdan artıq yeni generasiya gücünün yaradılması, ölkə üzrə qazlaşdırma səviyyəsinin 51 faizdən 98 faizə yaxınlaşdırılması, 21 min kilometrə yaxın avtomobil yolunun tikilməsi və yenidən qurulması Azərbaycanın yüksəlişinin mükəmməl nümunəsidir. 21 il əvvəl andiçmə mərasimində Prezident İlham Əliyev bəyan etmişdi: “Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir”.

Bu illər ərzində Prezident İlham Əliyev Azərbaycanı inkişaf etdirməklə həm də torpaqlarımızın işğaldan azad edilməsi üçün əlverişli tarixi zəmin formalaşdırdı. Beləliklə, 2020-ci ildə Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi möhtərəm Prezident İlham Əliyevin “Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir” fikirlərinin qələbə təntənəsinə çevrildi.

Ötən 21 ildə Azərbaycanda baş verən bütün pozitiv

dəyişikliklər Prezident İlham Əliyevin 2003-cü il oktyabrın 31-də andiçmə mərasimində söylədiyi fikirləri təcəssüm etdirir. Bu illər ərzində Azərbaycanın keçdiyi dinamik inkişaf yolu təsdiq edir ki, Heydər Əliyev siyasi kursunun Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata...

**Sədrlik edən.** Sağ olun. Əziz Ələkbərov. Buyurun.

**Əziz Ələkbərov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. COP29 yaxınlaşdıqca vahid mərkəzdən idarə olunan anti-Azərbaycan qüvvələrin ölkəmizə qarşı təzyiq və hücumları güclənməkdədir. Azərbaycanın suveren əraziləri Ermənistan tərəfindən 30 il işğal altında saxlananda susan ölkələr, beynəlxalq təşkilatlar bu gün riyakarcasına insan haqlarından, bir ovuc insanın geriyə qayıdış hüququndan danışırlar. Həm də bunu Qərbi Azərbaycan qaçqınlarının indiki Ermənistandakı doğma evlərinə qayıdış məsələsinin üstündən sükutla keçərək edirlər. Bəs onların hər vəchlə müdafiə etdikləri Ermənistanda nə edirlər?

Biz 2 nəfər alim bu günlərdə sonuncu deportasiya zamanı tərk etmək məcburiyyətində qaldığımız Qərbi Azərbaycan ərazisindəki 300-ə yaxın yaşayış məntəqəsinə aid 600 qəbiristanlıqla bağlı tədqiqatımızı başa vurmuşuq. Bu qəbiristanlıqların 450-dən çoxu yer üzündən tamamilə yox edilmişdir. 150-yə yaxınının ancaq dağıdılmış qalıqlarını müşahidə etmək mümkündür. 600 qəbiristanlıqdan cəmi ikisi – Amasiya rayonunun Qaranamaz və Kalinin rayonunun Cücəkənd qəbiristanlıqları hələlik salamatdır. Vəssalam. Təsəvvür edin, 600 qəbiristanlıqdan cəmi ikisi.

Hazırda 3 qəbiristanlıq üzərində iş gedir. Vedi rayonunun Şidli, Zəngibasar rayonunun Sarvanlar və Rəncbər qəbiristanlıqları üzərinə qum və torpaq verilərək izləri itirilməkdədir. Basarkeçər rayonunun 4 kəndində – Sarı-

yaqub, Daşkənd, Yuxarı Şorca və Canəhməd kəndlərində qəbiristanlıq ərazilərində tanklar üçün iri hərbi istehkamlar salınıb. Yuxarı Şorca və Canəhməd kəndlərindəki istehkamlar lap təzədir. 2024-cü ilin əvvəllərində salınıb. Basarkeçərin Zod və İnəkdağı kəndlərində də eyni vəziyyətdir.

Hörmətli həmkarlar, biz bu arayışları həmin 600 qəbiristanlığın hər biri haqqında, həm də bu gün ermənilərə havadarlıq edən ölkələrin, ABŞ-ın, Fransanın, Almaniyanın özlərinin 1988-ci ildən əvvəlki və sonrakı dövrlərə aid peyk görüntüləri və digər təkzibolunmaz sübutlar əsasında hazırlamışıq.

Hörmətli həmkarlar, bütün bunlar bəşər tarixində analoqu olmayan vandalizm hərəkətidir və bunda təkcə Ermənistan günahkar deyil. Həm də onu bu cinayətlərə sürükləyən, özünün Azərbaycanofob siyasətindən bu gün də əl çəkmək istəməyən dövlətlər günahkardır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli. Buyurun, Əli müəllim.

**Əli Məsimli.** Çox sağ olun, hörmətli sədr. Dağ kəndlərinin vaxtından əvvəl üzləşdiyi qış mövsümü ilə bağlı çətinliklər əhalini narahat edən məsələlər arasında ön plana çıxmağa başlayıb. Bu baxımdan Azərbaycanın ən gözəl kəndləri siyahısında öndə gedən Qaxın İlisu kəndində keçirdiyimiz görüş zamanı, İlisu Dövlət Təbiət Qoruğunun nadir meşə sərvətlərini, bitki aləmini qorumaq və artırmaq, eləcə də sel hadisələrinin qarşısını almaqdan ötrü digər vasitələrlə yanaşı, İlisu Dövlət Təbiət Qoruğu ərazisində yerləşən İlisu və Ağçay kəndləri ilə bərabər, Qum və Ləkit kəndlərinin də qazlaşdırılması məsələsini vacib hesab etdilər.

Bununla yanaşı, dağ kəndlərində havaların soyuq keçdiyi ayların sayı çox olduğundan, sakinlər daha çox qaz istifadə etməli olurlar. Bu isə onların maddi vəziyyətinə mənfi təsir göstərir. Ona görə də görüşdə iştirak edənlər qaz limiti məsələsinə yenidən baxılmasını xahiş etdilər.

Qeyd etmək istəyirəm ki, qazdan istifadə edən abonentlərin ümumi sayında 2500 kubmetrdən artıq, 25 qəpikdən hesablanan qaz istifadə edənlərin sayı azdır. Onların da xeyli hissəsi dağ kəndlərində yaşayırlar. Bu məsələ getdikcə aktuallaşır və bu aktuallaşma ilə yanaşı, narazılıqların da qarşısını almaq üçün iki mərhələdə təkliflərimi irəli sürürəm.

Birinci mərhələdə həmin sakinlərin qeyd etdikləri kimi, dağ kəndlərində qaz limitinə yenidən baxılması. İkinci mərhələdə isə Azərbaycanın enerji daşıyıcı dövlət olmasını, eyni zamanda, bu məsələ ətrafında narazılıqların artan xətlə getməsini nəzərə alaraq, ümumiyyətlə, Azərbaycanda qaz limiti, elektrik enerjisi limiti məsələsinin aradan qaldırılmasını vacib hesab edirəm.

Hesab edirəm ki, bu, dövlətə maliyyə yükü olmayacaq. Sadəcə, dağ kəndlərində yaşayanların vəziyyətinin yaxşılaşdırılması istiqamətində irəliyə doğru çox yaxşı bir addım olacaq. Bu, vətəndaş məmnunluğu yaradacaq. Ona görə də aidiyyəti orqanların bu məsələ ilə əlaqədar araşdırmalar aparıb dağ kəndlərində əvvəlcə limitin aradan qaldırılması, sonra isə, bütövlükdə, bunun Azərbaycana şamil edilməsi istiqamətində addımlar atmasını vacib hesab edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov.** Təşəkkür edirəm. Hörmətli

xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Azərbaycan xalqı bir neçə gündən sonra müstəqillik tarixinin ən əlamətdar hadisələrindən biri – Zəfər bayramını qeyd edəcək.

Azərbaycan xalqı 4 il bundan əvvəl böyük birlik və həmrəylik nümayiş etdirərək əzəmətli qələbəsini təmin etdi. Azərbaycan xalqı işğala son qoyaraq öz tarixində yeni bir səhifə açdı.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, artıq ölkəmiz yeni bir mərhələyə daxil olub. Bu mərhələnin ən önəmli istiqamətlərindən biri də ölkəmizdə ideoloji işin daha da gücləndirilməsidir. Proseslərin təhlili göstərir ki, Azərbaycanın inkişafını istəməyən bir sıra ölkələr və beynəlxalq təşkilatlar Azərbaycan gənclərinin düşüncələrinə təsir etmək, vətənpərvərlik hissini, dövlətçilik mövqeyini zəiflətmək üçün çox ciddi cəhdlər göstərirlər. Bu məqsədlə bir sıra layihələr həyata keçirir, ciddi maliyyə vəsaiti ayırırlar. Bu özünü Qərb dövlətlərinin ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması, gender bərabərliyinin təmin olunması ilə bağlı layihələrdə, eyni zamanda, bir sıra müsəlman ölkələrinin ölkəmizdə həyata keçirmək istədikləri yeni təbliğatda da açıq-aydın göstərir. Bu prosesin nə qədər təhlükəli olduğunu və acı nəticələrə gətirib çıxardığını biz bir sıra müsəlman ölkələrində gedən proseslərdən açıq-aydın görürük.

Qonşu Gürcüstanda keçirilən seçkilərdə də biz bu cür layihələrin bu və ya digər formada təsir və nəticələrini müşahidə etdik. Uzun illər həmin dövlətlərin ölkəmizdə apardığı təbliğat və kampaniya böyük nəticə verməsə də, onlar az sayda olsa da, Azərbaycan gəncinin düşüncə və fikirlərini zəhərləməyə nail olublar. Bu gün biz az sayda

olsa da, yeni gəncliyin yetişdiyini, onların əgər belə demək mümkündürsə, fərqli dəyərlərə sahibləndiklərini açıq-aydın görürük. Bu onların davranışında açıq-aydın sezilir.

Bütün bunlar nəzərə alınaraq, ölkəmizdə ideoloji işin daha da gücləndirilməsi xüsusi əhəmiyyət daşıyan məsələlərdən biridir. Bu işin bütün sahələrdə, xüsusi ilə orta və ali təhsil müəssisələrində, mediada davamlı, sistemli aparılmasına böyük ehtiyac var. Eyni zamanda, bu istiqamətdə ayrıca dövlət proqramının qəbul edilməsinin nəzərdən keçirilməsini təklif edirəm. Bu istiqamətdə iş daha da gücləndirilmədiyi təqdirdə, getdikcə gəncləri vətənpərvərlik və dövlətçiliyə sadiq ruhda yetişdirmək çətin olacaq. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən Bakının yollarında baş verən hazırkı vəziyyətlə bağlı danışmaq istəyirəm. Biz böyük bir tədbirə ev sahibliyi edirik. Təbii ki, gələn qonaqları gözəl qarşılamalıyıq, gözəl yola salmalıyıq. Yolda yaranan bu vəziyyət də təbii bir halın nəticəsidir.

Mən bir sıra təkliflərimi vermək istəyirəm. Hətta saat 6-da, 7-də gələndə belə yenə də tıxaclar olur. Xüsusən də qəsəbələrdən şəhərə daxil olan insanlar çox əziyyət çəkirlər. Buna görə də mən təklif edərdim, bəlkə də hökumət səviyyəsində elə bir təklif olsun, bir çox dövlət təşkilatlarına, özəl şirkətlərə tövsiyə olunsun ki, onlar noyabr ayı ərzində onlayn rejimə keçsinlər. Yəni tövsiyə olunsun, kim bunu bacararsa, infrastrukturu hazırdırsa, belə bir hal nəzərə alınsın. Çünki bu gündən artıq COP-la

bağlı olan zolaqlara da giriş-çıxış çətinləşdiyindən, vəziyyət daha da ağırlaşacaq. Bu, eyni zamanda, gələn qonaqlara da təsir göstərə bilər. Bu baxımdan mən belə bir tövsiyənin bütün özəl şirkətlərə, dövlət orqanlarına edilməsini istərdim.

İkinci isə, – təbii, bu tədbir, inşallah, xoşluqla, gözəlliklə bitəcək, – bilirsiniz ki, şəhərdə yenə də maşınlar artır, tıxaclar çoxalır. Bunun yeganə yollarından biri metro tikintisidir. Mən bir çox ölkələri araşdırdım, gördüm ki, hətta Moskvanın özündə belə ildə minimum 4–5, elə olur, 7–8 metro stansiyası açılır. Biz də Bakıda olan bu sıxlığın aradan qaldırılması məqsədi ilə ən azından ildə, heç olmasa, 4–5 metro stansiyasının açılması üçün vəsaitin ayrılmasını təmin etməliyik.

Təbii ki, Qarabağda da quruculuq işləri gedir, böyük vəsaitlər tələb olunur, bunu başa düşürəm. Amma hər halda, elə bilirəm ki, Dövlət Neft Fondundan, digər mənbələrdən ayrılan vəsaitlə, yaxud kredit vasitəsi ilə yeni metro stansiyalarının tikilməsi ilə bağlı qərar verilə bilər. Bu, sürətləndirilsin, ən azından 4–5 stansiyanın tikilməsi üçün vəsaitlər təmin edilsin. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Bir neçə gündən sonra biz Bayraq Gününü, həmçinin Zəfər bayramımızı qeyd edəcəyik. Bu zəfərə gedən yolun əsası 1993-cü ildə Ümummilli Lider tərəfindən qoyulmuşdur. Bunun əsas istiqamətləri isə 21 il bundan öncə, oktyabr ayının 31-də cənab Prezidentin Prezident səlahiyyətlərini icra etməsi ilə başladı və bu proseslər davam olundu.

Sözü, əməli, imzası bir olan Prezidentimiz bu 21 ildə

Azərbaycan xalqı, dövləti üçün əsrə bərabər işlər gördü. Əgər tarixə nəzər salsaq görərik ki, cənab Prezident məhz andiçmə mərasimində, həmin vaxt hansı məsələləri qaldırmışdısa, o məsələlər çox yüksək səviyyədə həyata keçdi. Cənab Prezident qeyd etmişdi ki, "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam". Nəinki Azərbaycanda, bütün dünyada yaşayan azərbaycanlıların və bütün türk dünyasının prezidentlərindən biridir cənab Prezident.

Cənab Prezident məsələ qaldırmışdı ki, regionlar inkişaf edəcək. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı 4 dövlət proqramı həyata keçirildi və indi 2 proqram – işğaldan azal olunan ərazilərlə və Naxçıvan Muxtar Respublikası ilə bağlı proqramlar həyata keçirilməkdədir. Cənab Prezident beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun qaldırılması və Azərbaycanla hesablaşmaq məsələsini qoymuşdu. Bu gün COP29 buna bir nümunədir.

Ən nəhayət, Nadir şahdan sonra Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasını məhz cənab Prezident həyata keçirdi. Ümummilli Liderin bir vəsiyyəti vardı, "Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları İlham Əliyev başa çatdıra biləcək", məhz cənab Prezident Ümummilli Liderin axıra çatdırmadığı işləri ardıcıl şəkildə Azərbaycan xalqının maraqları çərçivəsində həyata keçirdi.

Nəzərə alsaq ki, 2003-cü ildə məhz dünyada təzə başlamış rəngli, gül-çiçək inqilablarını və digərlərini ilk dəfə Azərbaycanda həyata keçirmək istəyirdilər və bunun qarşısı Azərbaycan xalqı, dövləti tərəfindən alındı. Bu gün biz qonşu dövlətlərə, ərəb ölkələrinə nəzər salanda onun acı nəticələrinin şahidi oluruq. Məhz 21 il bundan qabaq

bunun qarşısı alınmaqla, Azərbaycanda fundamental dövlət quruldu və cənab Prezidentimizin rəhbərliyi altında Azərbaycanın adı bir qalib dövlət kimi bu gün dünya tarixinə yazılıb.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Hikmət Məmmədov. Əslində, mənim Naqif müəllimlə sual-cavabım Hikmət müəllimin vaxtından bir az aldı. Ancaq Siz keçən dəfə də yazılmışdınız, danışa bilmədiniz deyə, mən indi Sizə söz verirəm. Buyurun.

**Hikmət Məmmədov.** Çox sağ olun, xanım sədr. Mən də çalışacağam, çox qısa danışım. Azərbaycan çox mühüm bir beynəlxalq tədbirə – BMT-nin Qlobal İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına ev sahibliyi edəcəkdir. Biz buna qısaca olaraq COP29 deyirik.

Hər gün biz mətbuatda oxuyuruq ki, daha çox dövlət başçısı, daha çox hökumət başçısı bu tədbirdə iştirak edəcəkdir, mötəbər qonaqlar gələcəkdir. Bu, COP29-dan Azərbaycana qarşı siyasi şantaj vasitəsi kimi istifadə etmək istəyən islamofob güc mərkəzlərini daha da aqressivləşdirir, daha kəskin bəyanat verirlər. Onlar çalışırlar ki, Azərbaycan ictimai rəyi üzərində bir manipulyasiya aparsınlar, tədbirin mahiyyətini azaltsınlar, Azərbaycanı beynəlxalq ictimaiyyətə insan hüquqlarını pozan ölkə kimi təqdim etsinlər.

Ona görə də Azərbaycan Prezidenti VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin açılışında dedi ki, Azərbaycanda ictimai rəy üzərində hakim olmağa çalışan qüvvələr var. Ancaq onlar bu məqsədlərinə çata bilmirlər.

Məsələnin bir tərəfi aydındır. Yəni biz həmişə bildiririk ki, ənənəvi amplualarında olan beynəlxalq təşkilatlar

insan hüquqları təşkilatı adı ilə Azərbaycana qarayaxma kampaniyası aparırlar. Amma Azərbaycan siyasi sistemində adını çəkmək istəmədiyim autsayder olan bir partiya var. Mən burada onun adını çəkib reklam etmək istəmirəm. O partiya da dünən bəyanat verib. Təsbit etdiyim bir məsələ var, sadəcə, onu bölüşmək istədim. Tutaq ki, yalançı insan hüquqları təşkilatlarının COP29-la bağlı yaydıqları mətnlə həmin partiyanın yaydığı mətnin məzmunu birə-bir eynidir. Yəni bu, bir daha onu göstərir ki, mətnlər eyni mərkəzdə hazırlanır, ötürülür və Azərbaycan ictimai rəyində bir iz buraxmağa çalışırlar. Amma bu, baş tutmayacaq. Ona görə ki, artıq bir neçə gün qalıbdır.

Həm islamofob mərkəzlərin fəaliyyəti, həm də Azərbaycanın siyasi sisteminə autsayder olan partiyanın fəaliyyəti nəticə etibarı ilə özlərini ifşa etməyə gətirib çıxarır. Çünki Azərbaycanda intellektual, savadlı, təhlil etməyi bacaran cəmiyyət var. Onlar görürlər ki, mətnlər müxtəlif mərkəzlərdə hazırlanırsa, bu qədər eyni, bu qədər uyğun ola bilməz.

Ümid edirəm, daha doğrusu, əminəm ki, Azərbaycanda bu tədbir  yüksək səviyyədə baş tutacaq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Hikmət müəllim.

Hörmətli həmkarlar, indi isə gündəliyin məsələlərinə keçirik. Bizim gündəliyimizdə 9 məsələ var.

1-ci məsələ "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Səhiyyə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, – Əhliman müəllim, Siz artıq buradasınız, – komitənin sədri hörmətli Əhliman müəllimə söz verirəm.

Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Çox hörmətli Sahibə xanım, çox hörmətli həmkarlar, media nümayəndələri. Xatırlatmaq istəyirəm ki, təqdim olunan qanun layihəsinin qayəsi ambulator müalicə alan xəstələrin dərman vasitələri ilə təminatının icbari tibbi sığorta ilə əhatə olunması və ya qarşılanmasıdır.

Qanun layihəsi birinci oxunuşda müzakirə olunduqdan sonra Səhiyyə komitəsinə irad və təkliflər daxil olmamışdır. Xahiş edirəm, qanun layihəsini ikinci oxunuşda səsə qoyasınız.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Əhliman müəllim. Hörmətli həmkarlar, bu, ikinci oxunuşdur, ona görə qanun layihəsini biz əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Səyyad Salahlı. Səyyad müəllim, buyurun.

**Səyyad Salahlı.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Əlbəttə, çox vacib qanundur. Əhalinin sağlamlığı dövlət səviyyəsində təmin olunan bir məsələdir. Bunun, necə

deyərlər, bu dərəcədə müzakirəyə çıxarılması və düzəlişlər edilməsi də tamamilə qanunauyğundur. Deyim ki, düzəlişlərin əksəriyyəti məntiqi baxımdan çox dəqiqdir. Amma müşahidələrim və öyrəndiyim bəzi faktlar məni təəccübləndirir.

Sən demə, Azərbaycanda həkim çatışmazlığı varmış. Bu qədər buraxılışlar olur. Bu həkimlər hara gedir? Öyrənmişəm ki, bu həkimlərin çoxu Türkiyəyə, Rusiyaya, Azərbaycandan kənar digər yerlərə gedirlər. Səbəb də məvacibin azlığıdır. Tutaq ki, başqa bir yerdə oxuyan adam başqa rayona göndəriləndə, öz ailəsi, qohumları ilə əlaqə saxlamaq üçün hər şənbə-bazar öz rayonuna gedəndə aldığı 1200–1300 manat məvacib ona çatmır. Nəticədə, məsələn, İmişli Rayon Mərkəzi Xəstəxanasında 30 həkim işləyir. Bir çox sahələr üzrə – rentgenoloq, travmatoloq, onkoloq, kardioloq, nevropatoloq, psixiatr ixtisaslarında, ümumiyyətlə, həkim yoxdur. Bəs bunları qurtaran nə qədər insanlar, ixtisaslı kadrlar olur. Bunlar hara gedirlər, hara yox olurlar?

Bəzi yerlərdə isə, demək olar ki, müəyyən sahələr üzrə yalnız bir həkim var. Reanimatoloq, ginekoloq, pediatr və sair. Deməli, o boyda rayonda 1 nəfərdir. Halbuki rayon mərkəzi xəstəxanasına gün ərzində min nəfər müraciət edir. Bəs bunlar kimin üstünə getməlidirlər? Nəticədə nə olur? Başqa sahələrdə təqaüd yaşına çatdın, gedə bilərsən, müəllimi qəfil dərs dediyi sinifdən çıxarırlar. Müəllim də, uşaqlar da şok olurlar. İndi bundan sonra sizə Fərid müəllim dərs deyəcək. Oradan yola salırlar, 2 nəfər gənc müəllimə də deyirlər ki, aparın bunu evlərinə qoyun, çıxıb gəlin. Nə xəbər, nə filan. Amma xoşbəxtlikdən həkimlərdə bir az belə deyil. Yaşı çatmış həkimlərlə müqavilə

bağlayırlar ki, qal, işlə. Niyə? Çünki kadr yoxdur.

Saatlıda da belədir. Məsələn, anestezioloq, ginekoloq, ümumi cərrah, reanimatoloq və lor ixtisasları üzrə həkimlər yoxdur. Amma Saatlıda maraqlı hadisə var. Bir nəfər Belarusda lor ixtisası üzrə oxuyub gəlib, amma bunun diplomunun təsdiqi və yaxud hansısa səbəbdən anlaşılmazlıq var. 10 ildir Saatlıda işləyir. Bunun sənədini düzəldib icazə vermirlər ki, gedib bu sahə üzrə işləsin, heç olmasa, Sabirabad, Saatlı, İmişli camaatı Bakıya axın etməsin, elə qonşu rayona getsin.

Bundan başqa, kənd tibb məntəqələri bağlanır, gedən yoxdur. Camaat indi də kənddən rayona gəlmək istəyir. Halbuki kənd tibb məntəqəsinə gedə bilərlər.

Ümumiyyətlə, icbari tibbi sığortada da bir boşluq var. Bunu diqqətə çatdırmaq istəyirəm. Deməli, adamlar icbari tibbi sığortanın vasitəsi ilə Bakıya gəlirlər. Amma, əlbəttə, vətəndaşın özünün özəl xəstəxanalardan birini seçmək hüququ var. Lakin onu göndərildiyi rayon xəstəxanasının tibbi personalının seçdiyi xəstəxanaya yönəldirlər. Bu zaman özəl xəstəxanalarda sıxlıq yaranır. Eləleri var, ixtisası üzrə həddindən artıq xəstələr göndərilir, eləleri də var, durub baxır. Bu da, təbii ki, rayon həkimlərinin və müdiriyyətin işidir.

Çox arzu edərdim ki, bu məsələ diqqətlə dinlənilsin və bərabərlik prinsipi gözlənilsin. Həm xəstə gəlib növbədə durmasın, vaxtını itirməsin, həm özəl xəstəxanalara, həm də digər, dövlət xəstəxanalarına bərabərlik əsasında paylaşdırılsın.

Sonra bir müşahidəm də var. İndi aydındır ki, tibbi sığorta nəticədə xalqın mənafeyinə yönələn məsələdir və dövlət çox gözəl bir xətt seçib. Amma bilmirəm, gedənlər olur, görürlər, ya yox. Xəstələri qeydiyyat şöbələrində çox acıqlı şəkildə qarşılayırlar. Elə bil, bunların üzərinə sanki

bir bəla, qorxu gəlir. Hamını acılayırlar. Ona görə ki, onların vərdiş etdikləri o nüans artıq yoxdur. Nə demək istədiyimi bildiniz. Qeydiyyat şöbəsində işləyən əlləri öyrəşmiş insanların çoxu qadınlardır. Mən bunu TƏBİB-in nəzərinə çatdırıram, xəstələrə çox acıqlı şəkildə yanaşırlar və onların, demək olar ki, bəzən arzularının həyata keçməsinə maneçilik edirlər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Səyyad müəllim. Siz bir çox məsələlərə toxundunuz. Mən Sizdən xahiş edəcəyəm, Saatlı rayonunda, İmişli rayonunda olan o dediyiniz faktları və bu məlumatları Siz hansı rəsmi mənbələrdən götürmüsünüz, onu yazılı surətdə bizə verin. Mən sonra Əhliman müəllimə söz verəcəyəm, yəni bəzi məsələlərə öz münasibətini bildirəcək. Çünki mən bilirəm ki, həmin komitədə rəsmi statistika da var. Ancaq Sizdən də xahiş edirəm, Sizdə olan rəsmi məlumatların hamısını yazılı şəkildə verin. Bizdə burada İmişlidən, Saatlıdan olan deputatlar var. Təbii ki, əgər belə bir formadadırsa, o məsələlərlə mütləq məşğul olmaq lazımdır.

Mən Sizə ikinci bir məsələni deyim. Milli Məclis olaraq biz dəfələrlə müxtəlif səhiyyə məsələləri ilə bağlı dinləmələr keçirmişik. Burada oturan deputatların hamısı bunu çox yaxşı bilir. Siz dediyiniz məsələlər də dəfələrlə qalxıb. Ancaq onu da mən qeyd edim ki, bu gün bu istiqamətdə, səhiyyə sahəsində çox uğurlu addımlar atılır. Mən düşünürəm, Siz onu da yaxşı bilirsiniz.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, xahiş edirəm, çıxış olanda, – çox-çox üzr istəyirəm, Siz məndən yaşda çox böyüksünüz, – bu məsələləri də demək lazımdır ki, bu sahədə nə qədər inkişaf var, dediyim kimi, nə qədər addımlar atılır. Bun-

ların nəticələri haqqında da demək lazımdır. Çox sağ olun, minnətdaram.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, mən ikinci oxunuşun tələblərinə uyğun olaraq, bir sıra təkliflərimi təqdim etmək istərdim.

15-1-ci maddə icbari tibbi sığortanın əsas prinsiplərini müəyyənləşdirir. Bizim qanun layihəsində təklif etdiyimiz dəyişikliklərə əsasən, həmin 15-1.1.1-ci maddədə təklif olunub ki, "dərman və tibb vasitələrinin əlçatanlığına və tibbi xidmətlərin keyfiyyətinin artırılmasına dövlət tərəfindən təminat verilməsi". Yəni təklif edirik ki, dərman və tibbi vasitələrin əlçatanlığına təminat verilsin. Amma əlçatanlığın formalaşması icbari tibbi sığortanın vəzifəsidir, prinsipi deyil. Əslində, əvvəlki versiyada da məhz keyfiyyətin artırılması nəzərdə tutulmuşdu. Ona görə mən təklif edərdim ki, 15-1.1.1-ci maddədə "dərman və tibb vasitələrinin əlçatanlığının yüksəldilməsi" qeyd olunsun. Çünki prinsip dəyişən bir prinsipdir və burada məqsəd həmin əlçatanlığın gücləndirilməsi və yüksəldilməsinə nail olmaqdan ibarət olmalıdır. 15-1.1.1-ci maddənin dəyişilməsi və "əlçatanlığının təminatı" deyil, "əlçatanlığın yüksəldilməsinə təminat verilməsi"ni təklif edərdim.

15-1.1.3-cü maddədə əlavə edirik ki, "habelə onun dərman və tibb vasitələri ilə təmin edilməsi". Nəzərə alsaq ki, praktikada bir sıra hallarda tam təminatla bağlı çətinliklər olur, ona görə mən təklif edərdim, məhz bu maddədə "tam təminat" qeyd olunsun, həmin dərman vasitələrinin təminatı ilə bağlı reallıqda, yəni praktikada hər hansı bir problem yaranmasın.

15-4.1.5-ci maddədə daha çox aptek təşkilatının təqsiri ucbatından ödənişlərin həyata keçirilməsi nəzərdə tutulur. Bu maddəyə baxılmasını və ya dəyişilməsini təklif edərdim. Çünki burada xüsusən də implementasiya baxımından bu prosesin elektronlaşmasına və bütövlükdə, həmin təşkilat tərəfindən zərərin ödənilməsi mexanizminin müəyyənləşdirilməsinə ehtiyac var.

Eyni zamanda, 15-7.3-cü və 15-7.4-cü maddələrdə aptek təşkilatının hüquqları və eləcə də vəzifələri müəyyənləşir. Amma bu maddələrdə aptek təşkilatının məsuliyyəti müəyyənləşmir. Halbuki 15-7.4.5-ci maddədə dəymiş zərərin əvəz edilməsi nəzərdə tutulub. Ona görə mən təklif edərdim ki, bu maddələrdə aptek təşkilatının məsuliyyəti ayrıca olaraq qeyd olunsun və 15-7.4.5-ci maddə, əslində, aptek təşkilatının vəzifəsi deyil, məsuliyyəti olduğuna görə ayrıca olaraq "aptek təşkilatının məsuliyyəti" kimi qeyd olunsun. Bu, bir tərəfdən, aptek təşkilatının məsuliyyətinin artmasına, digər tərəfdən, qanunda açıq şəkildə məhz aptek təşkilatının məsuliyyətinin bilinməsinə və ayrıca olaraq qeyd olunmasına imkan verə bilər.

Mən çox zamanınızı almaq istəməzdim. Amma digər təklifim 15-8.1.2-ci maddə ilə bağlıdır. Bu, xüsusən sığortaolunanın hüquq və vəzifələri ilə bağlıdır. 15.8.1.2-ci maddəyə baxılmasını və dəyişilməsini təklif edirəm. Çünki "tibbi xidmətlərdən, dərman və tibb vasitələrindən istifadənin səmərəliliyi" anlayışı tam anlayış deyil. Çünki "istifadənin səmərəliliyi" istifadənin genişləndirilməsi ola bilər, amma "səmərəliliyinin artırılması", məncə, buna baxılıb dəyişdirilməsinə ehtiyac var.

Eləcə də, 15.8.1.5-ci maddədə fərqin sığortaolunan tərəfindən ödənilməsi nəzərdə tutulur. Burada söhbət

pərakəndə satış qiyməti ilə şərti kompensasiya məbləği arasında fərqdən gedir. Məncə, bu, sığortaolunan üçün əlavə xərc yaradacaq və maliyyə öhdəliyi formalaşdıracaq. Bu maddəyə də baxılması və dəyişilməsini təklif etmək istərdim. Çünki burada pərakəndə deyil, topdansatış qiymətini götürmək olar ki, sığortaolunan üçün xüsusi bir və ya daha böyük maliyyə öhdəliyi yaranmasın. Nəticədə bu, imkan verə bilər ki, sığortadan istifadə edən vətəndaşımız bu halda daha az vəsait ödəsin.

Bütövlükdə, qanun layihəsini dəstəkləyirəm və hörmətli həmkarlarımızdan səs vermələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Elşad Musayev. Buyurun.

**Elşad Musayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən çox qısa danışacağam, vaxtınızı almayacağam.

Maraqlıdır ki, onkoloji xəstələr icbari tibbi sığortaya düşmür. Prezident seçkiləri dövründə Azərbaycanın, demək olar ki, əksər bölgələrini gəzdik. Ən çox soruşulan, qaldırılan məsələ bu idi – nə əcəb onkoloji xəstələr icbari tibbi sığortaya düşmür? İndi cürbəcür proqramlar, filan olar. Amma açığını deyim, yalnız parlament seçkiləri dövründə deyil, ondan əvvəlki dövrdə də bölgələrdə ən çox qaldırılan, soruşulan, tələb olunan məsələ bu idi. Xahiş edirəm, bu, nəzərə alınsın. Sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Elşad müəllim. Aqil Abbasov. Buyurun.

**Aqil Abbasov.** Təşəkkür edirəm, xanım sədr. Mən qanun layihəsinə səs verəcəyəm. Amma məsələ ilə bağlı bir təklifim var.

Məsələn, mən universiteti bitirəndə təyinatımı verdilər, ürəyim istəməsə də, getdim, 2 il Ağsuda müəllim işlədim.

Məcbur idim. Çünki dövlət məni oxutmuşdu, dedi, indi canın çıxsın, get, Ağsuda müəllim işlə. Yəni Ağdamda deyil, Ağcabədidə deyil, Ağsuda.

İndi məsələ budur ki, hər il Azərbaycan Tibb Universitetini nə qədər tələbə bitirir. Onlara niyə təyinat vermirlər həmin boş olan Ağcabədi, Füzuli rayonlarına? Bayaq Səyyad müəllim dedi, rayonlarda vakansiyalar boş qalıb. Niyə onlara təyinat vermirlər ki, bala, səni oxutmuşam, dövlət pulunu ödəyib, yataqxanasında qalmısan, indi də get, həmin rayonlarda 2 il, 3 il işlə və onlara da imtiyaz tanınsın. Məsələn, bu dəqiqə Xankəndiyə işləməyə getmək üstündə qırğın gedir. Çünki mənzillə təmin olunurlar, maaşları yüksəkdir, müəyyən imtiyazları var. Eləcə də həmin həkimlərə təyinat versinlər, getsinlər, işləsinlər. Məcburi qaydada sən buyur, get Ağcabədiyə. Onlara da müəllimlərə olunan güzəştləri eləmək olar. Məsələn, müəllimlər kənddə işləyəndə maaşları bir az yüksəkdir, rayondan kəndə gedirlər. Bir də mənzil, kirayə məsələsi. Yəni bunlara da bu imtiyazları tanımaq olar. Azərbaycan Tibb Universiteti Dövlət İmtahan Mərkəzinə...

Hər hansı şəxs universiteti “5” qiyməti ilə bitirir, Dövlət İmtahan Mərkəzi ondan təzədən imtahan götürür. Bu, universitetin diplomuna inanmamaq deməkdir. 1-2 il işləməmiş olsa, deyərəm, hə, eybi yox.

İndi Əhliman müəllim də buradadır və uzun illər Azərbaycan Tibb Universitetinin rektoru olub. Gözəl bir insandır. Əhliman müəllim, bu məsələni Siz də qaldırın, təyinat versinlər, onlar da gedib həmin rayonlarda lap məcburi qaydada işləsinlər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aqil müəllim, nə bilirsiniz ki, həkim yoxdur? Rayonların adını çəkirsiniz. Sizdə belə bir

məlumat var? Keçən dəfə də Siz burada məlumat verdiniz. Heç birinin arxasında bir fakt durmurdu. İndi Siz deyirsiniz ki, həkim yoxdur. Siz deyirsiniz, Səyyad müəllim deyir, heç yerdə həkim yoxdur. Ümumiyyətlə, respublikada səhiyyə sistemi tamamilə köklü-dibli yoxdur? Heç olmasa, deyəndə bir fakta əsaslanın.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda xahiş edirəm, rəsmi surətdə məlumat verin. Xahiş edirəm, statistikası ilə bir yerdə.

Rəşad Mahmudov. Buyurun.

**Rəşad Mahmudov.** Çox təşəkkür edirəm. Əlbəttə ki, bizim hazırda müzakirəyə çıxarılan qanun layihəsi xaricində bəzi mövzular gündəmə gəldiyinə görə Əhliman müəllim bir az sonra bunlarla əlaqədar fikirlərini söyləyəcək. Amma mən fürsətdən istifadə edərək, bir həqiqəti çatdırmaq istəyirəm. Belə bir gözəl deyim var, deyir, müqayisə ən gözəl ölçü vahididir. Bəzən bəzi dəyərləri ölçmək çətin olur.

Əlbəttə, bu gün dünyanın aparıcı ölkələrinə də baxdığımız zaman, ən başda mən İngiltərənin modelini verə bilərəm ki, hər hansı bir xəstənin müraciətindən sonra həkimin ambulator şəraitdə xəstəni görməsi üçün sonra ortalama 3–6 ay növbədə gözləmək məcburiyyətində qalınır. Yəni bunu nə üçün dilə gətirmək istədim?

Bu gün, əlbəttə ki, səhiyyə sahəsində bütün istiqamətlərdə inkişafla birlikdə bəzi problemlərimiz var, olacaq. Bunu diqqətinizə çatdırmaq istəyirəm ki, Azərbaycan dövləti, aidiyyəti qurumlar tərəfindən xüsusən son 4 il içərisində COVID-lə birlikdə icbari tibbi sığortanın həyata keçirilməsi başladıqdan sonra Azərbaycanda bəlkə də 100 illik tarixdə olmayacaq qədər ciddi səhiyyə

islahatları həyata keçirilib. Bu səhiyyə islahatları həyata keçirilərkən, əlbəttə ki, uzun illərdən bəri qalmış sovet dönəminin özünə xas xüsusiyyətləri ilə yeni dönəmin qarşılıqlı münasibətindəki problemlərə görə qarşımıza bəzi çətinliklər çıxır. Amma bunlar vaxtaşırı həll olunur.

Mən fürsətdən istifadə edərək, sadəcə, bir rəqəmi bildirmək istərdim ki, 4 il içərisində icbari tibbi sığortanın başlanması ilə birlikdə Azərbaycanda səhiyyə büdcəsi 4 dəfə artıb. Rəqəmlərə görə, Azərbaycanda ən yüksək texnologiyalar tətbiq olunan xəstəliklərdən əziyyət çəkən on minlərcə insan müalicə xərclərinin 3 milyarddan çoxuna öz ciblərindən vəsait istifadə edirdilər. Onlar hamısı dövlət hesabına həll olunur. Ölkədə xüsusən tibb sisteminin inkişafı ilə əlaqədar tədrisdə görüləcək ciddi işlər başlanılıb və əlbəttə ki, biz bunların nəticəsini almaq üçün zamana ehtiyac olduğunu bildirmək istəyirik. Çünki tibb təhsili, özünüz bilirsiniz ki, həm ixtisaslaşmasına, həm bir çox xüsusiyyətlərinə, həm də bir sıra digər sahələrə görə uzunmüddətli vaxt tələb edən bir təhsildir.

Onkologiya sahəsində dövlət qarşısında duran problemlər. Bilirsiniz ki, dövlət proqramı var və bu proqrama görə hazırda aidiyyəti qurumlar araşdırmalar aparırlar. Çünki icbari tibbi sığortanın bəlli bir hissəni üzərinə götürməsi məsələləri gündəmdədir.

Mən fürsətdən istifadə edərək, – xanım sədr, bəlkə mövzumuz deyil, – bunu dilə gətirmək istəyirəm, bu, hamımızın problemidir. Yaxın keçmişdə icbari tibbi sığorta ambulator şəraitdə onkoloji xəstəliklərin müayinəsini üzərinə götürdü və yaxın gələcəkdə bir çox proseslərin başlanması ilə əlaqədar hazırlıqlar gedir. Amma unutmamaq lazımdır ki, bunlar bir qədər qarşılıqlı məsələdir.

Unutmamaq lazımdır ki, icbari tibbi sığortanın başlanması ilə birlikdə dövlət rayonlarda hər hansı bir baryer qoymadığına, vətəndaşın qəbulu və müraciəti çox asan olduğuna görə inanılmaz şəkildə həddindən çox müraciətlər olur. Bu müraciətlər araşdırıldığı zaman bunların 90 faizinin bəlkə də xəstəxanaya getməsinə ehtiyac olmayan vəziyyətlər olduğu görünür. Ona görə də bu qarşılıqlı münasibətlərin düzəlməsi üçün zamana ehtiyac var.

Azərbaycanın təhsil sistemində, xüsusən tibb təhsilində tələbə qəbulunun artırılması ilə əlaqədar addımlar atılır. Bununla əlaqədar statistik rəqəmləri həmkarlarımıza çatdıra bilərik.

Fürsətdən istifadə edərək, demək istədiyim odur ki, istənilən bir ölkədə səhiyyə islahatları hər zaman bəlli, ağrılı bir prosesdən keçir. Mən dəyərli millət vəkillərimizdən xahiş edəcəyəm ki, – bu dönəmin aidiyyəti orqanlar tərəfindən gecə-gündüz, necə deyərlər, istirahət edilmədən mübarizəsi davam olunur, – bu yöndə sizlərin də bu islahatlara dəstək verməniz çox ehtiyac var. Əminliklə deyə bilərəm ki, önümüzdəki illərdə Azərbaycanda bu gün aparılan islahatlarla birlikdə bizlər hər bir Azərbaycan vətəndaşının düşünmədən özünü Azərbaycan tibbinə təslim etməsi üçün böyük imkanlar əldə edəcəyik. Amma unutmayın ki, həkimlərin də bəlli bir rezervi var. Həddindən çox, lazımsız yerə müraciətlərin sayı artdığı zaman bölgələrdə, əlbəttə ki, insan resurslarının çatışmazlığı ilə qarşılaşa bilirik. Bunun da zaman içərisində düzələcəyinə əminik.

Bir daha fürsətdən istifadə edərək, mənə imkan yaratdığınıza görə təşəkkür edirəm. Düşünürəm ki, bizlər hər birimiz var olan bütün problemlərimizi də əl-ələ verərək,

addım-addım, mərhələlərlə həll edəcəyik. Ölkədə bütün sahələr öz yerində, həm Mehriban xanımın şəxsi təşəbbüsü, həm də cənab Prezidentin özünün səhiyyə sahəsindəki xüsusi diqqəti sayəsində Azərbaycan səhiyyəsi, bir daha təkrar edirəm ki, 100 il içərisində keçdiyi yoldan bəlkə qat-qat daha önəmli bir yol qət etmişdir. Əminik ki, Azərbaycanın bütün səhiyyə işçiləri bu yolda əl-ələ verərək, cənab Prezidentin humanizm bayrağı altında sıx birləşərək qarşımızda duran bütün çətinliklərin öhdəsindən bundan sonra da layiqincə gələcəklər. Mənə fürsət yaratdığınıza görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Rəşad müəllim, sağ olun. Soltan müəllim, Müşfiq müəllim, Razi müəllim, əgər qanunun ikinci oxunuşuna uyğun çıxış edəcəksinizsə, söz verirəm, yoxsa...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən layihəni səsə qoyacağam. Amma mən ona görə səsə qoymayacağam ki, bizim müzakirəmizin hamısı qanunun ikinci oxunuşunun tələbinə uyğun oldu. İkinci oxunuşa uyğun təkcə Vüqar Bayramovun çıxışı oldu. Burada lazım olmayan diskussiyalar açılır, çünki çıxışlar düzgün edilmir. Əgər siz tənqidlə və sair ilə bağlı çıxış etmək istəyirsinizsə, bəli, alternativ fikir də, tənqid də olur. Ancaq heç olmasa, adam bütün bunlar barədə bir insafla danışar. Təbii, problemlər var, amma demək ki, ümumiyyətlə, səhiyyə yoxdur... Siz nə danışırsınız? Lazım olmayan diskussiyalar. Rəşad müəllim məcbur oldu, bir çox məsələləri dedi. Mən bilirəm, indi Soltan müəllim danışacaq. Əhliman müəllim, danışmaq istəyirsinizsə, buyurun.

**Əhliman Əmiraslanov**. Sahibə xanım, mən hesab edirəm ki, bu gün bu müzakirədə iştirak edən deputat həmkarlarımın dediklərində həqiqət var. Kadr çatışmazlığı, ilkin tibbi yadımın səviyyəsinin xüsusi ilə regionlarda aşağı olması, onkoloji xəstəliklərin icbari tibbi sığortadan kənarda qalması, doğrudan da, bunlar bu gün bizi narahat edən məsələlərdir. Hərçənd ki, bunun qanunun predmetinə bir aidiyyəti yoxdur. Ancaq istərdim, qeyd edim ki, kadr məsələlərinin həlli ilə bağlı artıq son illər...

**Sədrlik edən.** Əhliman müəllim, çox üzr istəyirəm. Qanun layihəsi ilə bağlı nə isə sözünüz varsa, deyin. Yoxdursa, çox xahiş edirəm, Sizə yaxınlaşarlar və işçi qaydada Sizinlə danışarlar. Buyurun.

**Əhliman Əmiraslanov**. Mən hesab edirəm ki, bu məsələlərin hamısı aktual məsələlərdir. Ancaq mən Azərbaycanda səhiyyənin səviyyəsinin çox aşağı olması ilə razı deyiləm. Rayonlarda kadrların olmaması deyil, çatışmaması məsələsi var.

Sahibə xanım, mən istərdim, qeyd edim ki, 4 il bundan qabaq dövlət tərəfindən səhiyyə sisteminə ayrılan vəsait 870 milyon manat idisə, bu gün icbari tibbi sığorta ilə birlikdə 3 milyard manatı keçibdir və get-gedə artır. Bu, ədalətsiz olar, deyək ki, icbari tibbi sığorta işləmir. İcbari tibbi sığorta işləyir və aparılan sorğulara görə, əhalinin icbari tibbi sığortadan məmnunluğu günbəgün artır. Şübhəsiz ki, orada da müəyyən çatışmazlıqlar, müəyyən problemlər var. Bunlar hamısı get-gedə həll olunur.

Təyinatla bağlı, mən istərdim, Aqil müəllimə cavab verim ki, Azərbaycanda təyinat sistemi var. Bilirsiniz ki, əvvəllər Azərbaycan Tibb Universitetini bitirəndən sonra təyinat olurdu. İndi isə rezidentura sistemi var. Rezidenturanı biti-

rəndən sonra təyinatlar verilir. Mən bunları demək istəyirəm.

Vüqar müəllimin ikinci oxunuşun tələbinə uyğun olaraq, qaldırdığı məsələləri biz araşdıracağıq və üçüncü oxunuşda o məsələlərə aydınlıq gətirəcəyik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Hörmətli həmkarlar, ikinci oxunuşdur, biz gərək qanun layihəsini, birinci, maddələr üzrə səsə qoyaq.

Hörmətli həmkarlar, bu layihədə iki maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Bu-

yurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Bu, "Qrant haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Mən indi sözü komitənin sədri hörmətli Azər Əmiraslanova verirəm. Buyurun, Azər müəllim.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Müzakirəyə təqdim edilmiş qanun layihəsi dövlət tərəfindən bələdiyyələrə, yerli özünüidarəetmə orqanlarına qrant verilməsinin hüquqi əsaslarını müəyyən edir. Eyni zamanda, bu əsasları konkretləşdirir, dəqiqləşdirir. Gələcəkdə bələdiyyələrin maliyyə imkanları bir növ şaxələndirilmiş olur. Hörmətli həmkarlarımızdan layihənin dəstəklənməsini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Fariz İsmayılzadə. Fariz müəllim, buyurun.

**Fariz İsmayılzadə**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Müzakirə etdiyimiz qanun layihəsi bələdiyyələrin maliyyə dəstəyinin artırılması məqsədi daşıyır. Buna görə onu təqdirəlayiq hesab edib dəstəkləyirəm. Eyni zamanda, təklif olunan dəyişikliklərdə bələdiyyələrdən savayı, bələdiyyə assosiasiyalarını da əlavə etmək istərdim. Bildiyiniz kimi, ölkəmizdə 3 bələdiyyə assosiasiyası fəaliyyət göstərir. Bunlar şəhər, qəsəbə və kənd bələdiyyə assosiasiyalarıdır. Hesab edirəm ki, onların da dayanıqlı maliyyə dəstəyinə ehtiyacı var.

Fürsətdən istifadə edib, bu qanunla bağlı başqa bir təklif də vermək istərdim. Bildiyiniz kimi, son illərdə ölkəmizdə ali təhsilin inkişafı üçün universitetlərdə qeyri-dövlət vəsaitinin artırılması təşviq olunur. Lakin praktik səviyyədə qrantların və ianələrin verilməsində bir çox hallarda problemlərlə üzləşirik. Xüsusi ilə universitetlərimiz qrantların qeydiyyatı zamanı problemlərlə üzləşirlər. Təklif etmək istərdim ki, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin və lazım olarsa, Elm və təhsil

komitəsinin üzvləri “Qrant haqqında” Qanuna yenidən baxıb dövlət universitetlərinə verilən qrantların qeydiyyat prosedurlarının digər təşkilatlar, misal üçün, QHT-lərə verilən qrantlarla müqayisədə sadələşdirilməsini nəzərdən keçirib dəstəkləsinlər. Diqqətiniz üçün minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Fariz müəllim. Siyavuş Novruzov.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Keçən dəfə də Azər müəllim bu məsələ haqqında ətraflı şəkildə məlumat verdi. Bir anlaşılmayan məsələmiz var idi. O da qanun layihəsinin ikinci oxunuşunda öz həllini tapır. Yəni o bələdiyyələr tərəfindən qrant vasitəsi ilə tikilən hansı sosial obyektlərin bələdiyyələrin balansına verilməsi. Yəni bələdiyyənin balansına verildikdə artıq bələdiyyə ondan icarə haqqı da ala bilər. Götürək ki, futbol meydançasıdır və yaxud da parkdır. Orada hər hansı bir iaşə müəssisəsi də aça bilər və sair. Bundan da əldə etdiyi gəlirləri oranın abadlığına, təmirinə və digər işlərinə sərf edə bilər. Mən hesab edirəm, üçüncü oxunuşa qədər orada bir cümlə də əlavə olunsa, çox gözəl olar ki, buraya sosial layihələr ilə yanaşı, iqtisadi layihələr də əlavə edilsin. Yəni o qrantlar həm sosial, həm də iqtisadi layihələrə verilsin.

Hörmətli Sahibə xanım, biz bir tədqiqat apardıq. Demək olar ki, bələdiyyələr üzrə bu qrantları alanlar, əsasən, bələdiyyələrin işi ilə məşğul olan qeyri-hökumət təşkilatları, bu sahədə mütəxəssisləşmiş qruplar olmalıdır. Qeyri-hökumət təşkilatı çox azdır, bir neçəsi var. Ümumilikdə götürdükdə isə, bu, gələcəyin işidir.

İndi bizim həmkarımız çox hörmətli Azay müəllim burada iştirak edir. Azərbaycanda 5 mindən artıq qeyri-

hökumət təşkilatı varsa, – biz bu statistikanı apardıq, – bunun cəmi 105-i, ya 109-u regionlarda fəaliyyət göstərir. Yerdə qalan təşkilatlar hamısı Bakı şəhərindədir. Bələdiyyələrin də əksər yükü rayonlardadır, regionlardadır, regionları əhatə edir.

Üçüncü məsələ isə bu qrantların verilməsi. Sahibə xanım, Siz də iştirak etmisiniz. Dünyada, Avropa Şurasında da yerli özünüidarəetmə Parlament Assambleyasından heç də geri qalmır. Məsələn, Avropa Şurasında yerli özünüidarəetmə institutunun Avropa Komissiyasında da, hər bir yerdə də çox üstünlükləri var, orada da müzakirələr gedir və bizim bələdiyyələrimiz də orada iştirak edirlər. Bunların o dünya təcrübəsini öyrənməsi üçün orada iştirakı, – burada dəfələrcə məsələ qaldırılıb ki, başqa ölkələrin təcrübəsini öyrənmək lazımdır, – öyrənməsi üçün o qrantlardan ayrılıb, həmin ölkələrin təcrübəsi öyrənilib, gələcəkdə Azərbaycana tətbiq edilməlidir.

Qanun layihəsinə səs verəcəyik. Çox mütərəqqi qanun layihəsidir. Həmkarlarımı da səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. Edilən dəyişikliklər bələdiyyə fəaliyyətində yenilikdir. İndiyə qədər bələdiyyələr heç bir zaman qrantlar almayıblar. Bu, ilk təcrübə olacaq. Ümid etmək istəyirəm ki, bu təcrübə müsbət nəticələrini verəcək, bələdiyyələrin möhkəmlənməsinə, qarşılarında duran vəzifələrin yerinə yetirilməsinə çox böyük bir dəstək olacaqdır.

Nəzərə alsaq ki, indiyə qədər bələdiyyələr heç zaman qrant almayıblar, qrantların həyata keçirilməsi ilə məşğul

olmayıblar, hansı isə bir dövlət qurumunun tərkibində bələdiyyələrə bu məsələdə məsləhət verəcək, onları istiqamətləndirəcək, bir sözlə, yol xəritəsi çəkəcək bir qurumun olması çox yaxşı olardı. Bu, qrantlardan səmərəli istifadə edilməsinə, bələdiyyələrin yenidən qrant almasına böyük bir dəstək olardı. Yoxsa belə alınar ki, birinci qrantı ya səmərəli istifadə edə bilmir, ya da uğursuzluğa düçar olur. Sabahısı gün yeni qrant almaqdan artıq ehtiyat edəcək.

İkinci qaldırmaq istədiyim məsələ ondan ibarətdir ki, mən bir şeyə təəssüf edirəm, mətbuatımızda, sosial şəbəkələrdə bələdiyyələrlə bağlı, əsasən, mənfi yüklü materiallar yayılıb. "Bələdiyyə sədri tutuldu", "torpağı qanunsuz verdi", filan bələdiyyə filan məsələyə baxmadı. Belə bir təəssürat yaranır ki, Azərbaycanda, ümumiyyətlə, bir müsbət fəaliyyət göstərən bələdiyyə yoxdur. Mənə elə gəlir ki, bələdiyyə ittifaqı, eyni zamanda, Ədliyyə Nazirliyi müsbət iş görən və seçicilərin etimadını doğruldan bələdiyyələrin müsbət təcrübəsi ilə bağlı mətbuatda, sosial şəbəkədə informasiyanın yayılmasında maraqlı olmalıdır. Düzdür, qarşıdan bələdiyyə seçkiləri gəlir. İndidən hansı isə bələdiyyə ilə bağlı belə materialların verilməsi reklam xarakteri daşıyar. Mən çox istəyərdim ki, seçkilərdən sonra bu məsələ bələdiyyələrin özlərinin diqqətində olardı. Ədliyyə Nazirliyi bu istiqamətdə fəaliyyətini müsbət quran, uğurlar, müsbət nəticələr əldə edən bələdiyyələrin iş təcrübəsi barəsində ictimai fikrə vaxtaşırı məlumatlar verilməsinin bir sistem halına salınmasını təşkil etsə, bunu müsbət iş hesab edərdik.

**Sədrlik edən.** Sağ olun. Azər Əmiraslanov. Buyurun.

**Azər Əmiraslanov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Deputat həmkarlarımız tərəfindən qeydlər, təkliflər

oldu. Hər birinə ayrı-ayrılıqda təşəkkürümü bildirirəm. Hörmətli Fariz İsmayılzadə qeyd etdi, bələdiyyə assosiasiyalarının da qrant resipiyenti kimi bu layihədə nəzərdə tutulması. Bir şeyi xüsusi olaraq vurğulamaq istərdim ki, hətta bu qanun layihəsinə qədər də "Qrant haqqında" Qanunda dövlət tərəfindən hüquqi şəxslərə qrant verilməsi nəzərdə tutulub. O cümlədən bələdiyyə assosiasiyalarının özü də statusuna görə hüquqi şəxsdir, baxmayaraq ki, onlar həm də ictimai birliklərdir. Deməli, əvvəlki redaksiyada belə bələdiyyə assosiasiyaları üçün qrant verilməsinin hüquqi əsasları var və həmin qanun o münasibətləri də tənzimləyir.

İkinci bir tərəfdən, hörmətli Sahibə xanım, qrant münasibətləri çoxşaxəlidir. Yəni qrant münasibətlərinin subyektləri hədsiz dərəcədə çoxdur və belə olan halda "Qrant haqqında" Qanuna, təbii ki, yenidən baxılması, bununla bağlı müzakirələrin keçirilməsi mümkündür. Lakin bu qanun layihəsi çərçivəsində baxılmalı məsələ konkretdir. Burada yalnız bələdiyyə–dövlət arasındakı qrant münasibətlərindən söhbət gedir.

Hörmətli Siyavuş Novruzovun qaldırdığı məsələ ilə bağlı qeyd etmək istərdim, bu gün belə bir qanun layihəsinin təqdim edilməsi həm də onunla bağlıdır ki, bələdiyyələrlə dövlət arasında qrant münasibətlərinin tənzimlənməsi üçün gələcəkdə qaydaların hazırlanması nəzərdə tutulur. O qaydalarda bununla bağlı bütün aspektlər nəzərdə tutulacaq, öz həllini tapacaq. O ki qaldı 5 min qeyri-hökumət təşkilatından 105-nin, – düzdür, bu, başqa bir məsələdir, amma buna da münasibətimi bildirmək istərdim, – bəli, 105 qeyri-hökumət təşkilatının regionlarda fəaliyyət göstərməsi sayca azdır. Çünki biz

regionlarda tək iqtisadi fəallığı, sosial fəallığı deyil, həm də ictimai fəallığı yüksəltməliyik və qeyri-hökumət təşkilatlarının da bu istiqamətdə rolu ola bilər. Çünki qeyri-hökumət təşkilatları həm də qrant münasibətlərinin resipiyenti statusunda çıxış edirlər.

Hesab edirik ki, bu layihə gələcəkdə qrant münasibətlərində yeni bir mərhələni yaratmış olacaq. Bu sahədə yeni təcrübələr qazanılacaq. Hesab edirik ki, bu, eksperiment kimi gələcəkdə daha da inkişaf etdirilə bilər və ehtiyac yaranarsa, yenidən bunun tənzimlənməsi ilə bağlı yeni yanaşmalar ola bilər. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Siz dediniz ki, qaydalar yazılacaq. Mən düşünürəm, Aydın müəllimin dediyi təkliflər o qaydalarda öz əksini tapa bilər. Qanunda yox, qaydalarda öz əksini tapa bilər.

Azay Quliyev. Azay müəllim, layihənin birinci oxunuşunda Siz yox idiniz, ona görə də Sizin fikirlərinizi də dinləyək. Buyurun.

**Azay Quliyev**. Çox sağ olun, təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Hörmətli xanım sədr, əslinə baxanda mən bununla bağlı çıxış etmək istəmirdim. Amma burada bir neçə məsələ qaldırıldı, onlara münasibət bildirmək istəyərdim.

Əvvəla, bələdiyyələrə qrant almaq hüququnun verilməsi və bunun qanunvericiliyə gətirilməsi, əlbəttə, mütərəqqi bir haldır. Amma bu, heç də o demək deyil ki, bələdiyyələr indiyə qədər qrant almayıblar. Yəni bu gün elə məsələlər var ki, təbii, orada şəffaflığın yaradılması və bütün proseslərin qanunvericilik çərçivəsində həyata keçirilməsi vacib olduğuna görə məhz bu müddəanın "Qrant haqqında" Qanuna əlavə edilməsi çox vacib idi. Əlbəttə, gözlən-

tilər odur ki, bundan sonra bələdiyyələrə əlavə maliyyə mənbələri yaranacaq. Bu, təkcə mütləq deyil ki, xaricdən gələn vəsaitlər hesabına olsun. Eyni zamanda, Azərbaycanın daxili resursları hesabına da qrant verilə bilər və qrantın da verilməsinin əsas üstünlüyü odur ki, onlar müəyyən güzəştlərlə əhatə olunurlar. Həm vergi güzəştləri, həm də digər güzəştlərlə əhatə olunurlar. Bu baxımdan da əvəzsiz olaraq verilən bu maliyyə yardımının bələdiyyə institutlarına verilməsi, ümid edirik ki, bu sahədə ən azından institusional baxımdan yeni bir dəyər gətirə biləcəkdir.

O ki qaldı burada digər suallara, əlbəttə, qanunvericilik mütəmadi olaraq təkmilləşdirilməlidir. Səhv etmirəmsə, “Qrant haqqında” Qanun 1997-ci ildə qəbul olunub. Eyni zamanda, həmin dövrdən bu yana xeyli dəyişikliklər həyata keçirilib. Bu dəyişikliklərin əsas mahiyyəti ondan ibarətdir ki, ümumiyyətlə, qrantın verilməsi və qrantın alınması prosesi şəffaflaşdırılsın. Bilirsiniz ki, bu istiqamətdə indiyə qədər bir neçə müddəa yenilənibdir. Amma mən onu da demək istəyirəm ki, hazırda həm “Qrant haqqında” Qanuna, həm “İctimai iştirakçılıq haqqında” Qanuna, həm də “Hüquqi şəxslərin dövlət qeydiyyatı və reyestri haqqında” Qanuna yeni əlavə və dəyişikliklər hazırlanır. Ümid edirəm ki, bu, bütün suallara aydınlıq gətirəcək. Təbii ki, ictimai münasibətlərin tənzimlənməsi baxımından yeni reallıqları düzgün olaraq məhz qanunvericilik səviyyəsində həll etmək mümkün olacaqdır.

O ki qaldı regionlarda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarına, hörmətli Siyavuş müəllim bununla bağlı dedi, 105 QHT fəaliyyət göstərir. Mən hesab edirəm, bu rəqəm müzakirə oluna bilər, məncə, bu rəqəm kifayət qədər çoxdur. Həm də nəzərə almaq lazımdır ki, bu gün

təkcə regionlarda fəaliyyət göstərən müstəqil QHT-lər deyil, eyni zamanda, Bakıda fəaliyyət göstərən qurumların regionlarda filialları da var, onlar da məhz həmin ərazilərdə QHT-lərin mandatına uyğun fəaliyyəti icra edirlər. Amma, əlbəttə, könül istərdi ki, bu proses regionlarda daha da genişlənsin. Orada, bilirsiniz ki, həm resurs və təlim mərkəzləri fəaliyyət göstərir, həm də dediyim kimi, ayrı-ayrı qurumların filialları var.

Bütövlükdə isə, bilirsiniz ki, dövlətin bu istiqamətdə 2008-ci ildən etibarən ayrıca bir siyasəti var və dövlət səviyyəsində Azərbaycanda QHT hərəkatı dəstəklənir, maliyyə verilir. Qeyri-hökumət təşkilatlarının bütün ictimai əhəmiyyətli layihələri məhz dövlət tərəfindən diqqətə alınır və ona maliyyə vəsaiti ayrılır. Ona görə də bu istiqamətdə, əlbəttə ki, gələcəkdə vəsaitin artırılması məsələsinə baxıla bilər. Dövlət tərəfindən büdcədən ayrılan vəsaitlərin yenidən artırılması məsələsinə baxıla bilər. Əlbəttə, dediyim kimi, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində işlər görülə bilər ki, bu istiqamətdə yəqin yaxın müddətdə müvafiq təkliflər Milli Məclisə daxil olacaqdır. Çox sağ olun.

**Sədrlik edən**. Sağ olun. Hörmətli həmkarlar, biz səsverməyə keçirik. Qanun layihəsi 4 maddədən ibarətdir. Mən onları iki-iki səsə qoyacağam. Xahiş edirəm, indi 1-ci və 2-ci maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

Sağ olun, bunlar qəbul edildi.

Xahiş edirəm, 3-cü və 4-cü maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

Qəbul edildi. İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

3-cü məsələyə keçirik. "Daşınar əmlakın yüklülüyü haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Ona görə Azər müəllim, mən yenə də Sizdən xahiş edirəm, bizə məlumat verin. Buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım

sədr, hörmətli deputat həmkarlar. İkinci oxunuş üçün təqdim olunan bu qanun layihəsi konkret bir məsələni nəzərdə tutur. Məsələnin mahiyyəti bundan ibarətdir ki, daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə həmçinin daşınar əmlakın seriya nömrəsi də daxil edilir. Bu, gələcəkdə yüklülük altında olan daşınar əmlakın axtarışı zamanı istənilən məlumatı əldə etməyə imkan yaradacaqdır. Məsələnin mahiyyəti bundan ibarətdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. İkinci oxunuşdur, xatırladım. Buyurun, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Bəhruz Məhərrəmov. Buyurun, Bəhruz müəllim.

**Bəhruz Məhərrəmov.** Təşəkkür edirəm, hörmətli sədr. Əziz həmkarlar, ikinci oxunuşun tələbinə müvafiq olaraq, mən layihədə 21.1.5-ci maddəyə diqqət çəkmək istəyirəm. Reyestrə yüklülük haqqında bildirişin daxil edilməsi ilə bağlı ümumi qaydaları müəyyən edən həmin maddədə yeni düzəlişlə “bildirişi daxil edən şəxs tərəfindən müəyyən edildikdə” ifadəsi var. Hesab edirəm ki, bu ifadədəki selektiv imkan dəyişiklik layihəsinin fəlsəfəsinə nisbətən

uyğun gəlmir. Əgər dövlət reyestrinin aparılması zamanı reyestrə daxil edilən bildirişdə göstərilən məlumatların yeni dairəsində daşınar əmlakın seriya nömrəsinin əlavə edilməsi qərara alınırsa, indi məsələyə dispozitiv imkan kimi baxılması, bildirişi daxil edilən şəxs tərəfindən müəyyən edilib-edilməməsi kimi şərtdən asılı saxlanması məsələsi, hesab edirəm ki, təkrar gözdən keçirilsə məqsədəmüvafiq olar. Bütövlükdə isə kifayət qədər mütərəqqi layihədir. Təbii ki, dəstəkləmək lazımdır. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Bəhruz müəllim. Daha çıxış edən yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. 3 maddədən ibarətdir. Bir-bir səsə qoyacağam.

Xahiş edirəm, indi 1-ci maddəyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, mən 2-ci maddəni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə xahiş edirəm, 3-cü maddəyə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyacağam. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, növbəti məsələ “Arbitraj haqqında” Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmış-

dır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Kamran Bayramova söz vermək istəyirəm. Kamran müəllim, buyurun.

**Kamran Bayramov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar. İkinci oxunuşda müzakirəmizə çıxarılmış "Arbitraj haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır və bəzi məcəllələrdə və qanunlarda dəyişikliklərin edilməsini nəzərdə tutur.

Birinci oxunuş zamanı layihəyə dair heç bir irad, təklif daxil olmadığından, onun olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Musa müəllim, sizin komitədə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Komitənin rəyi müsbətdir. Səsə qoyulmasını təklif edirik.

**Sədrlik edən.** Çox sağ olun. Azər müəllim, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Xahiş edirəm, məlumat verin.

**Azər Əmiraslanov.** Rəyimiz müsbətdir. Layihə komitə tərəfindən dəstəklənir.

**Sədrlik edən.** Çox sağ olun. Gənclər və idman komitəsində də baxılıb. Komitənin sədri Şahin müəllim İsmayılov, xahiş edirəm, məlumat verin.

**Şahin İsmayılov,** *Milli Məclisin Gənclər və idman*

*komitəsinin sədri.*

Hörmətli xanım sədr, əziz həmkarlar. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bu, ikinci oxunuşdur, qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Ona görə mən səsverməyə keçəcəyəm. Maddələr üzrə səs verəcəyik. Layihədə 11 maddə var. Mən onların bəzilərini üç-üç, axırıncı 2 maddəni isə ayrılıqda səsə qoyacağam.

İndi isə xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

İndi isə növbəti 3 maddəni səsə qoyuram. Bunlar 4-cü,

5-ci və 6-cı maddələrdir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə 7-ci, 8-ci və 9-cu maddələrə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Sonuncu 2 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bunlar da qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Münasibət bildirməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Gündəliyimizdə növbəti məsələ 5-ci məsələdir. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Komitənin sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Buyurun, Arzu müəllim.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, təqdim olunan qanun layihəsi Azərbaycan Respublikasının "Hərbi xidmətkeçmə haqqında" Əsasnaməsində və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş hərbi qulluqçuların təhsili ilə bağlı normativlərin təkmilləşməsi məqsədi ilə hazırlanmışdır.

Birinci oxunuşda plenar iclasda baxılmış və eyni za-

manda, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində bir daha müzakirə edilmiş, ikinci oxunuş üçün plenar iclasa tövsiyə edilmişdir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim. Hörmətli həmkarlar, yenə də qanun layihəsini əsas kimi qəbul etməliyik. Bu qanun layihəsinə əsas kimi səs verməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Əsas kimi qəbul edildi, çox sağ olun.

Müzakirəyə keçirik. Fazil Mustafa. Fazil müəllim, buyurun.

**Fazil Mustafa.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən də bu qanun layihəsini dəstəkləyirəm, amma ikinci oxunuşun tələbinə uyğun olaraq, fikirlərimi bildirmək istəyirəm.

Hörmətli xanım sədr, Siz dəfələrcə xatırladırsınız, ikinci oxunuşun tələbləri nəzərə alınsın, çıxışlar birinci oxunuşun tələblərinə uyğun olsun. Bizə göndərilən çox faydalı elektron bir forma var, gündəlik tətbiq forması. Bəlkə orada ayrıca hər dəfə qanunvericiliyə uyğun olaraq, xatırladılsın ki, birinci oxunuşun, ikinci oxunuşun, üçüncü oxunuşun tələbləri necədir, tez-tez ona baxılsın və daha konkret mövzular ətrafında müzakirə aparmaq mümkün

olsun.

150-1-ci maddədə nəzərdə tutulan məsələ prinsip olaraq düzgündür. Yəni hərbi ali təhsil müəssisəsinə, kollecə qəbul olmusansa və oradan çıxırsansa, deməli, sonradan oranı məsuliyyətsiz formada tərk etmək imkanı tanınmamalıdır. Tanınmırsa, onda orada oxuduğun müddətdə dövlətin sənə çəkdiyi xərclərin ödənməsi məsələsini də öz üzərinə götürməlisən. Amma burada, məncə, kateqoriyaları bir az ayırmaq lazımdır. Bu maddədə "müvəffəqiyyətsizliklərinə, təhsillərini davam etdirmək istəmədiklərinə və ya intizamsızlıqlarına görə" qeyd edilir. İntizamsızlığa görə bunu tətbiq etmək olar, amma "müvəffəqiyyətsizlik" insanın fiziki və zehni qabiliyyəti ilə bağlı məsələdir. Yəni elə insan var ki, hərbi işi seçir, amma fizikadan, kimyadan başı çıxmır və təhsil almaq imkanı, potensialı olmur. Məncə, biz burada bir ifadə artırmaqla bunu edə bilərik – "məqsədyönlü müvəffəqiyyətsizlik". Yəni adam qəsdən oxumur ki, "3" qiyməti alıb buradan çıxsın. Amma elə-belə, hansısa fiziki qüsuruna, yaxud hansısa zehni imkanı olmadığına görə müvəffəqiyyətsizdirsə, bu vəsaiti ödəməsi bir az ədalətli sayılmır.

İkinci vacib məsələ. Burada müvafiq icra hakimiyyəti orqanı kimsə hərbi məktəbdə təhsilini yarımçıq qoyandan sonra hesablayır ki, ona nə qədər xərc çəkilibdir və o, nə qədər ödəniş etməlidir. Hərbi hissəyə gedir, 4 günü 1 gün sayılır – bunlar aydındır. Məncə, burada, heç olmasa, müqavilə imzalanan zaman həmin məktəbin aylıq və ya illik standart xərcləri barədə ona bilgi verilməsi vacibdir. Yəni həmin müqavilədə əvvəlcədən təqribi rəqəm göstərilsin, sonrakı vəziyyətlərdə əlavə xərclər də çıxa bilər. Ona görə də qəbul zamanı onlara çəkilən aylıq və illik

xərclərin standartları barədə həmin müqavilədə müddəanın yer alması daha doğru olar. Çünki ora qəbul olunan adam artıq əvvəlcədən hesablaya bilir ki, onun etdiyi məsuliyyətsizliyin, intizamsızlığın, yaxud məktəbdə təhsilə davam etmək istəməməsinin bədəli minimum bu qədər məsrəfin ödənməsinə başa gələcəkdir. Onda o, artıq qərar qəbul etmək məsələsində daha dəqiq və öz marağına uyğun davrana bilər. Hər halda bunlar olsa, qanunun işləmə effekti daha dəqiq ola bilər. Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Fazil müəllim. Təklif etdiniz ki, biz hər dəfə orada yazaq, birinci oxunuşun tələbləri, ikinci oxunuşun tələbləri nədir. 1 ay, 2 ay, mən onu nə qədər yazdırım? Nizamnamə var, qoy hamı oxusun. Hörmətli Fazil müəllim, mən bunu deməyə məcburam. Mən bunu deməyə məcburam ki, birinci oxunuşun, ikinci oxunuşun, üçüncü oxunuşun tələbləri nədir. Çox sağ olun.

Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Qanun layihəsi vacib qanun layihəsidir. Mənim fikirlərimin bir hissəsini hörmətli Fazil müəllim çatdırdı.

Mən də qeyd etmək istəyirəm ki, təbii, dövlətin müəyyən xərclər çəkməsini biz başqa strukturlarda da görürük. Bu, əsasən, müqavilə ilə işəgötürülənlərdədir. Misal göstərə bilərəm. Koronavirus dövründə, 44 günlük Vətən müharibəsindən sonra başqa yerlərdə iş yerləri bağlandığına görə bir çoxları müqavilə əsasında ordunun ayrı-ayrı sahələrində, o cümlədən Sərhəd Qoşunlarında işə qəbul olunurdular. Onlar işə qəbul olunanda təminatları üçün həmin təşkilat ayrı-ayrı dövlət strukturlarına sifariş verir və onlar forma, uyğun ölçüdə ayaqqabı, qış, yay olmaq

şərti ilə 2 dəst geyimlə təmin olunurlar. Bu da dövlətə bir şəxs üçün 3500-4000 manata başa gəlir. Nəticə etibarı ilə 2 ay işlədikdən, başqa yerdə iş tapdıqdan sonra gətirib ərizəsini verir. Çünki bunun heç bir məsuliyyəti yoxdur və çıxıb gedir. Həmin xərc qalır dövlətin üzərində. Ona görə də burada məsuliyyət müəyyənləşməlidir ki, əgər həmin tədris müəssisəsindən uzaqlaşdırılması onun məsuliyyətsizliyi, davranışı, digər məsələlər ucbatından baş verirsə, ona çəkilən xərclər, təhsil haqqı, o cümlədən yeməyi, yaşayışı və digər təminatlar, o vəsait onun tərəfindən ödənilməlidir. O baxımdan da mütləq əvvəlcədən seçim etsin ki, burada axıra qədər davam gətirə biləcək, ya bilməyəcək, daxili nizamnamənin tələblərinə dözə biləcək, ya da dözə bilməyəcək.

Amma bir şey, burada onun 1 gününün 4 gün hesab olunması indi o biri qanunlarda da yoxdur. Hərbi məktəblərdə hərbi xidmət keçənlər çox yaxşı bilirlər ki, "uçebka" deyirlər, "uçiliş" deyirlər, hərbi xidmət çəkməkdən daha ağırdır. Onun şərtləri daha çətindir. Yəni orada oxuyub təhsil almaq, təlimlər keçmək. Bu, dinc dövrə də, müharibə dövrünə də aiddir. Tək müharibə dövrü deyil ki, dinc dövrə də aiddir və ondan daha ağırdır. Məsələn, 1 günü 4 gün hesab edilir. Yaxşı, bir adam gəlib burada 4 il oxuyur, axırda diplom ala bilmir və diplomu ala bilmədiyinə görə oradan uzaqlaşdırılır, göndərilir orduya. Hələ gedib 6 ay da orduda xidmət etməlidir ki, bunun 1 il 6 aylıq xidmət müddəti başa çatsın, ondan sonra ordu sıralarından tərxis olunsun.

O baxımdan Arzu müəllimdən xahiş edərdik ki, gələcəkdə bu məsələlərə baxılsın, nəzərə alınsın. Başa düşüləndir ki, müharibə şəraitində 1 xidmət günü 3 gün

hesablanır. Yəni müharibə şəraitində 1 xidmət günü 3 günə bərabərdir. Cəbhə bölgəsində 1 gün xidmət göstərirsə, bu, 3 gün hesab olunur. 1 il xidmət edirsə, 3 il xidmət sayılır. Gələcəkdə hərbi rütbə, hərbi vəzifə almaqda o müddətlər ona köməklik göstərir. Amma burada 4 il oxuyub, sonra gedib yarım il əsgərlik çəkib ondan sonra tərxis olunması, hesab edirəm ki, bir qədər o müddətə uyğun gəlmir. Heç olmasa, 2 gün, 3 gün hesab olunsa, daha məqsədəuyğun olar. Təşəkkür edirəm. Qanun layihəsinə səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Hörmətli Ziyafət müəllim söz istəyirdi.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Arzu müəllim, sonra söz verəcəyəm.

**Ziyafət Əsgərov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Burada "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunla bağlı Fazil müəllim bir məsələ qaldırdı, müvəffəqiyyətsizliklə bağlı. Fazil müəllim, əvvəla, bu anlayış bizim bir sıra qanunlarda artıq var. Söhbət burada ondan gedir ki, kursant tədris yükünü mənimsəyə bilmir. Məsələn, Siz özünüz qeyd etdiniz, fizika, kimya, riyaziyyat olsun, fərqi yoxdur, əgər o, hər bir halda müvəffəqiyyətsizliyə uğrayırsa, istər-istəməz vidalaşmalıdır. Ona görə də burada ya "qəsdən", ya da "qeyri-qəsdən" ifadəsi yazmağın mənası yoxdur. "Müvəffəqiyyətsizlik" o deməkdir ki, bu adam, sadəcə, tədris kursunu mənimsəyə bilmir.

Mənim yaxşı yadımdadır, biz bunu "Təhsil haqqında" Qanunda və digər normativ hüquqi aktlarda təsbit etmişik. O vaxt bu məsələ müzakirə olundu. Biz hətta dilçilərlə də, belə deyək, məsləhətləşdik ki, bunu necə edək. Elə belə də qəbul olundu. Ruslar buna "неуспеваемость" deyirlər.

Bizim dilimizdə bunun başqa ifadəsi yoxdur. Ona görə, hesab edirəm ki, elə belə də getməlidir. Sağ olun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Ziyafət müəllim. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli Fazil müəllimin qaldırdığı məsələyə artıq Ziyafət müəllim aydınlıq gətirdi. Orada bir məqama – "müvəffəqiyyətsizlik"lə bağlı məqama aydınlıq gətirdi. Təbii ki, təhsilini davam etdirmək istəməyənlər də var. Sadəcə olaraq, onlar həmin təhsil müəssisəsinə qəbul olublar, bir müddətdən sonra özləri oxumaqdan imtina edirlər. Digər məqam "intizamsızlıq"dır. Yəni söhbət təkcə birinci haldan getmir. Ona görə də hər bir hal fərdi şəkildə araşdırılır və sonra qərar qəbul olunur. Tək "müvəffəqiyyətsizlik" deyil.

İkinci məsələ. Hörmətli Siyavuş müəllim məsələ qaldırdı. Nəyə görəsə 4 il götürürlər ki, kursant 4 il oxudu, axırda diplomunu ala bilməyib getdi. Kursant 1 il də, 2 il də oxuya bilər. Yəni əgər bu əsgərlik müddəti 1 il 6 aydırsa, onun xidmət günləri niyə dördün birə nisbətində hesablanır? Yəni bu, əgər 2 ildən sonra qovulursa və yaxud xaric olunursa, mütləq şəkildə gedib əsgəri xidmətini çəkməlidir, il yarımını başa vurmalıdır.

Siyavuş müəllimin qaldırdığı digər məsələ, niyə 1 il 3 il hesablanır? Döyüş bölgələrində, dağ şəraitində, digər şəraitlərdə bir il iki il sayıla bilər, hətta hərbi hissənin yerləşdiyi ərazidə elə yerlər var ki, bir il iki il sayılır. Gələcəkdə rütbə, vəzifə alınmasında, hətta pensiyaya, təqaüdə gedəndə də bu hesablanır. Yəni bunlar bir az başqa məfhumlardır. Ona görə də, düşünürəm ki, qanunda elə bir ciddi problem yoxdur.

Digər məsələ. Söhbət təkcə Müdafiə Nazirliyinin kursantlarından getmir. Burada digər qurumların da kursantları var və hər birinin də xidmət illərinin hesablanması fərqlidir. Hətta hazırda müxtəlif hərbi təhsil müəssisələrinə qəbul olunanda onların valideynlərinə də müəyyən imtiyazlar nəzərdə tutulur. Düşünürəm ki, bunların hamısı qanun layihəsində öz əksini tapıb. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Arzu müəllim. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Maddələr üzrə səsverməyə keçirik. Qanun layihəsi 2 maddədən ibarətdir.

Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

2-ci maddəni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 6-cı məsələyə keçirik. "Uşaq hüquqları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Komitə sədrinə, hörmətli Hicran xanım Hüseynovaya söz verirəm. Hicran xanım, buyurun, məlumat verin.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Çox hörmətli xanım sədr, hörmətli həmkarlar və hörmətli media nümayəndələri. Məlumdur ki, uşaqlarımıza müxtəlif sahələr üzrə xidmət göstərən bir çox müəssisələr var. Bunlar həm dövlət, həm də qeyri-dövlət müəssisələridir. Dövlət müəssisələrində xidmətlərin təşkilinə, yaşayış şəraitinə, qidalanmaya, sağlamlığa, təhlükəsizliyə, təlim-tərbiyə və asudə vaxtın təşkilinə dair monitorinqlər aparılır.

Lakin sayı gündən-günə artan özəl müəssisələrdə isə belə monitorinqləri aparmaq olmur. Əfsuslar olsun ki,

həmin müəssisələrdə xidmətin keyfiyyətinin aşağı olması haqqında məlumatlar var. Bununla bağlı bizə vətəndaşlar da müraciət edirlər və mediada uşaqlara qarşı bu cür pozuntularla bağlı informasiyalar verilir. Əsas problemlər işçi heyətinin qeyri-peşəkarlığı, uşaqların saxlanma şəraiti ilə bağlı nöqsanlar, göstərilən xidmətlərin qanunvericiliyin tələblərinə uyğun olmamasıdır. Bu isə uşaq hüquqlarının pozulmasına gətirib çıxarır.

İstər parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclasında, istərsə də plenar iclasda olan müzakirələr zamanı da bu məsələ ilə bağlı bir çox fikirlər səsləndirildi. Mən fürsətdən istifadə edib bir daha deputat həmkarlarıma təşəkkür edirəm. "Uşaq hüquqları haqqında" Qanunda olan bu dəyişikliyi onlar da müsbət qarşıladılar.

Təqdim olunan qanun layihəsinin əsas mahiyyəti belədir. Əvvəllər ancaq dövlət uşaq müəssisələrində monitorinq aparılırdı. Qanunda dəyişiklik edildikdən sonra isə paralel olaraq qeyri-dövlət uşaq müəssisələrində də monitorinqlər aparılacaq və bu, bütün sahələri əhatə edən uşaq müəssisələrinə aid olacaq.

Belə bir sual da verilirdi ki, bunlar hansı yaş qrupuna daxil olan uşaqlara aiddir? Qanuna görə 18 yaşına çatmayan hər bir şəxs uşaq sayılır. Layihə dövlət və qeyri-dövlət müəssisələrində olan 18 yaşadək bütün uşaqları əhatə edəcək.

İkincisi, bütün uşaq müəssisələrində xidmətlər eyni və vahid tələblər əsasında göstəriləcək. Həmin tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi xidmətin keyfiyyətinə dair tələblər olacaqdır.

Üçüncüsü, uşaq hüquqlarının həyata keçirilməsinin monitorinqi üzrə vahid meyarlar müəyyən ediləcək. Bu

meyarlar qanunvericilik əsasında hazırlanacaq. Bunlar – təhsil, tərbiyə və asudə vaxtın təşkili, sağlamlığın mühafizəsi, sosial müdafiə, alternativ qayğı, uşaqların təhlükəsizliyinin təmini, cinayət törətmiş uşaqların islah olunması meyarlarıdır. Qeyd edim ki, hər bir meyar özündə çoxsaylı sahələri əhatə edəcək. Bütün bunlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunacaqdır.

Göründüyü kimi, təklif olunan qanun layihəsi uşaqlarımızın hüquqlarının qorunması baxımından çox mühüm bir sənəddir. Cari il oktyabrın 23-də komitə iclasında ikinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Əlavə rəy və təklif daxil olmamışdır. Məlumatı nəzərə almağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinə İnsan hüquqları komitəsində də baxılmışdır. Hörmətli Zahid müəllim, buyurun, ikinci oxunuşda olan layihə barədə komitənin rəyini bildirin.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli millət vəkilləri. Artıq Hicran xanım məlumat verdi. Layihə gerçəkdən də uşaq hüquqlarının qorunması sahəsində iki mühüm dəyişikliyi özündə ehtiva edir. Mütərəqqi dəyişikliklərdir.

Birinci oxunuşda hörmətli Razi Nurullayev, Ceyhun Məmmədov, Səyyad Salahlı, Tənzilə xanım Rüstəmxanlı və Mehriban xanım Vəliyeva çıxış etmişdilər və müxtəlif sahələrlə bağlı çox dəyərli təkliflərini irəli sürmüşdülər. Biz birinci oxunuşdan sonra onların hər biri ilə ayrıca danışmışıq, bir çox məsələlərə aydınlıq gətirmişik.

Hörmətli Əli müəllim Əhmədov Baş nazirin müavini kimi fəaliyyət göstərdiyi dövrdə bu sahədə hansı zərurət-

dən bu hüquqi qanunvericilik aktlarına dəyişiklik təşəbbüsünə də bir aydınlıq gətirmişdir. Düşünürəm ki, bunlar həm monitorinq, həm də hesabatlılıqda meyarlığa dair çox mütərəqqi dəyişikliklərdir. Səs verə bilərik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxışa yazılanlar var. Nigar Məmmədova. Nigar xanım, buyurun.

**Nigar Məmmədova.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Xanım sədr, söz verdiyinizə görə təşəkkür edirəm. Mən həm 29-cu, həm də 43-cü maddələri ümumiləşdirib hər iki maddə ilə bağlı qısaca öz fikrimi bildirmək istərdim. Sosial uyğunlaşma proqramlarına və psixi sağlamlıq məsələlərinə toxunmaq istəyirəm. Uşaqların psixi sağlamlığına təsir edəcək bir sıra risk faktorları mövcuddur ki, bu da onların sonrakı həyatlarında özünü açıq şəkildə göstərir. Bu səbəbdən məişət zorakılığı, gender əsaslı zorakılıq, təhsil hüquqları, uşaq hüquqları ilə bağlı uşaqların silsilə maarifləndirilməsi, onlar üçün bu səmtdə kursların, hər hansı maarifləndirici tədbirlərin təşkil edilməsi zəruridir.

Keçən dəfə həmkarımız Elnarə xanım asudə vaxt mə-

sələsinə toxundu. Onun düzgün təşkilinin psixi sağlamlıq, uyğunlaşma, özünə inam və intellekt üçün müsbət təsirləri var. Bu, çox vacibdir.

Təhsil müəssisələrində müştərək tədbirlərin keçirilməsi, peşə seçimi ilə bağlı treninqlərin təşkili, eyni zamanda, ekoloji və dünyəvi məsələlərlə bağlı maarifləndirmə işlərinin aparılması da effektiv nəticələr verə bilər. Nə üçün mən bu bənddə təhsil müəssisələrini vurğulamaq istəyirəm? Çünki dövlət və qeyri-dövlət müəssisələrində təhsil müəssisələri ilə müştərək tədbirlər məhz uşaqlar, onların sosiallaşmaları üçün çox vacibdir. Həmçinin idman federasiyaları və ya klublarla səmərəli əməkdaşlığın qurulması, uşaqlar arasında istedadlıların, xüsusi bacarığı olanların seçilərək aidiyyəti üzrə cəlb edilməsi məqsədəuyğun olardı. Həmkarım Fazil Mustafa bundan öncə legionerlərlə bağlı məsələ qaldırdı. Xanım sədr, dövlət və qeyri-dövlət müəssisələrində bu potensiallı uşaqların sayı çoxdur. Təcrübəmə əsaslanaraq deyirəm, biz çoxlu sayda idman federasiyaları ilə əməkdaşlıq etmişik və bu hallara rast gəlmişik. Onların inkişafı üçün çoxlu layihələr icra etmişik. Həmçinin xüsusi bacarıqların inkişaf etdirilməsi üçün uşaqları müvafiq kurslara, olimpiadalara, festivallara, yay düşərgələrinə yönləndirmək də yaxşı nəticələr verir. Bu təklifi də irəli sürmək istərdim.

Digər məsələ çox vacib bir məsələdir. Uşaqlarla yanaşı, təlimçilər və əsas koordinatorların özlərinin də maarifləndirilməsinə, onlarla psixoloji təlimlərin aparılmasına ehtiyac var. Mən niyə maarifləndirilmələrinə diqqət yetirmək istərdim? Çünki həm dövlət, həm də qeyri-dövlət müəssisələrində müxtəlif yaşlarda olan uşaqlar var. Həm autistik spektrda olan uşaqların vaxtında üzə çıxarılması,

eşitmə ilə, kəkələməklə bağlı problemləri olanların müəyyənləşdirilib peşəkar mütəxəssislərə yönləndirilməsi çox vacib məsələdir. Digər tərəfdən, təlimçilər uşaqlarla işlədiyi dövrdən sonra onların psixoloji baxımdan yorğunluğunun aradan qaldırılması üçün onlara psixoloji yardımlar təşkil edilməlidir.

Təkliflərimdən biri də valideyn–övlad münasibətləri ilə bağlıdır. Çünki bu müəssisələrdə biz gələcək üçün həm ailə başçısı, həm də gələcəyin analarını formalaşdırırıq. Bu məsələlərə biz diqqət yetirməliyik. Çünki biz cəmiyyətə gələcək cəmiyyətin üzvlərini, gələcəyin analarını, ailə başçılarını təqdim edirik. Bu səbəbdən də bu müəssisələrdə psixoloji təlimlər təşkil olunmalıdır. Layihəni dəstəkləyirəm və səs verəcəyəm. Çox sağ olun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nigar xanım. Vüqar İskəndərov. Buyurun.

**Vüqar İskəndərov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar və hörmətli media mənsubları. Hörmətli xanım sədr, mən ikinci oxunuşun mahiyyətinə uyğun, konkret məsələ barəsində fikir bildirmək istəyirəm.

29-cu maddədə qeyd olunur ki, "dövlət uşaqlara birdəfəlik ödəmələr, aylıq müavinətlər, kompensasiyalar formasında sosial yardımlar verir". Həmin maddənin 2-ci cümləsində "ehtiyacı olan uşaqlara müvafiq icra hakimiyyəti orqanları əlavə yardım və imtiyazlar tətbiq edə bilər" yazılır. Təklif edərdim ki, burada "müvafiq icra hakimiyyəti orqanları" sözləri ilə bərabər "fondlar" sözü də əlavə olunsun. Çünki biz bununla həm dövlətin yükünü azaltmış oluruq, həm də "Uşaq hüquqları haqqında" Qanunun preambulasında bununla bağlı məsələ var. Orada imti-

yazlar və dəstəklər, həm dövlət orqanlarının, həm də fiziki və hüquqi şəxslərin vəzifələri göstərilir. Biz oraya yalnız icra hakimiyyəti orqanlarını deyil, həm də fondları əlavə etsək, – çünki kifayət qədər uşaq fondları, digər dəstək verən təsisatlar var, – onlar da bu mənada kömək edə bilərlər. Bu, həm də dövlətin yükünü azaltmış olar.

Hörmətli xanım sədr, bir məsələ də var. Bizim beynəlxalq konvensiya ilə milli qanunvericilikdə bir fərq görünür. "Uşaq hüquqları haqqında" Qanunda uşaqların yaşı 18 yaş göstərilir, amma "Dövlət gənclər siyasəti haqqında" Qanunumuzda Azərbaycanda gənclik yaşı 14–29 yaş arası götürülür. Yəni beynəlxalq konvensiyada uşaqlar 18 yaşına qədər götürülür, amma bizdə artıq 14 yaş gənclik yaşı götürülürsə, demək, bizdə bu yaş 13 yaşda bitmiş olur. Düşünürəm ki, gələcəkdə bu məsələyə də baxılmasına ehtiyac var. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli Rafael müəllim söz istəyir. Rafael müəllim, buyurun.

**Rafael Hüseynov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Oxunuşun parametrləri ilə əlaqədar söz getdiyinə görə, mən bilavasitə bu 29-cu maddəyə əlavə edilmiş bəndlərlə bağlı konkret sözümü deyəcəyəm. Ona istinadla bir düşüncəmi də bölüşmək istəyirəm.

29.1-ci maddə – "Uşaq müəssisələrində xidmətlər". "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində xidmətlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi xidmətin keyfiyyətinə dair tələblərə uyğun olaraq göstərilir". Azərbaycan dilində bu şəkildə yazıla bilməz. Burada bir dəyişiklik edilməlidir. Necə edilməlidir, onu indi deyəcəyəm.

"Xidmət" sözünün dilimizdə 2 mənası var. Bir xidmət hansısa işi yerinə yetirməkdir, bir də o işi yerinə yetirən

qurum. Tutalım, dövlət təhlükəsizliyinə xidmət etmək bir ayrı anlayışdır, Dövlət Təhlükəsizliyi Xidməti başqa bir anlayışdır. Buradan belə çıxır ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi xidmət. Bu xidmət artıq hansısa işi yerinə yetirən bir sahə kimi düşünülür. Belə olmaz. Ona görə də mütləq belə yazılmalıdır: "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində xidmətlər müvafiq icra hakimiyyəti orqanının xidmətin keyfiyyətinə dair müəyyən etdiyi tələblərə uyğun olaraq göstərilir". Belə yazılmalıdır. Demək, "müvafiq icra hakimiyyəti orqanının xidmətin keyfiyyətinə dair müəyyən etdiyi tələblərə uyğun".

Digər bənddə: "uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi". Necə yazılmalıdır, onu deyirəm: "uşaq hüquqlarının bütün sahələrdə həyata keçirilmə vəziyyətinin monitorinqinin meyarlarına müvafiq" və ardı getməlidir. Yaxud bu şəkildə ola bilər: "uşaq hüquqlarının bütün sahələrdə həyata keçirilməsi monitorinqinin meyarlarına müvafiq olaraq". Elə düzəlişlərdir ki, bu, mütləq belə olmalıdır. Demək, birincisində "icra hakimiyyəti orqanının xidmətin keyfiyyətinə dair müəyyən etdiyi tələblərə uyğun olaraq" – bu cür olmalıdır, dəqiqi budur.

**Yerdən.** *(Eşidilmir.)*

**Rafael Hüseynov.** Xidmət qalsın yerində. Burada söhbət o biri xidmətdən gedir axı. Xidmətin keyfiyyətinə dair, yəni görüləcək işin keyfiyyətinə dair müəyyən edilmiş. Söhbət budur. "Xidmətin keyfiyyətinə dair müəyyən etdiyi" – belə olmalıdır, dəqiqi budur.

Hər dəfə ayrı-ayrı terminlərdə, sözlərdə, üslubiyyatda müəyyən qüsurlara rast gəlirik. Bununla bağlı mən vaxtı ilə Milli Məclisdə təklif etmişdim və onu bir daha mən

təkrarlamaq istərdim.

Bizim bir sıra sahələrdə terminlərdə sahmansızlıq var. Xüsusən hüquq dilinin terminologiyasında sahmansızlıq çoxdur və bunların düzəlməsinə ehtiyac var. Məsələn, – burada təcrübəli hüquqşünaslar əyləşiblər, – elə terminlər var ki, onu sadə insanlar anlamırlar. Bəzən hüquqşünasların özləri bilmirlər. Məsələn, izafət tərkibli hüquq termini var. Qətimkan həm izafətdir, həm də apostrof da ləğv olunandan sonra insanları lap çaşdırır. Qətimkan hərəkətin məhdudlaşdırılması deməkdir. Qət ərəbcədə kəsməkdir, qabağını almaqdır. Bizdə çox zaman insanlar onu "qəti imkan tədbiri", yəni konkret, belə qəti şəkildə yerinə yetirilmiş anlayış kimi işlədirlər. İcra icraatı – belə termin var. Bunlar hamısı dəyişilməli və sadələşdirilməli, müasir Azərbaycan dilinin normalarına uyğunlaşdırılmalıdır.

Vaxtı ilə bizdə hesab terminləri çox bərbad bir vəziyyətdə olub. Məsələn, üçbucağa müsəlləs, dördbucağa müstəddid deyiblər. İndi üçbucaq deyirik, dördbucaq deyirik, sadə sözlərdir. Vaxtında bu zərurəti dərk etdiyindən, Üzeyir bəy hələ 1908-ci ildə "Hesab məsələləri" adlı bir kitab yazmışdı ki, bu sahədə müəyyən islahatlar etsin.

İndi mənim təklifim nədən ibarətdir? Bizdə burada müxtəlif qanunlar hazırlanır. Hətta biz bunu ekspertiza üçün hansısa dilçilik institutuna göndərsək belə, onlar hüquq məsələlərini bilmədiklərinə görə, etdikləri hansısa redaktələr peşəkarlıq nöqteyi-nəzərindən yanlışlıqlar doğuracaq. Ona görə mən vaxtı ilə təklif etmişdim ki, Milli Məclisdə qanunvericilik dili və indi şərti ad deyirəm, Qanunvericilik dili və hüquq terminologiyası deyilən bir şöbə yaradılsın.

İndi qarşıdan büdcə müzakirələri gəlir. Biz orada təklif

də edə bilərik ki, gələn ildən bizim bu struktura onun vəsaitini də əlavə etsinlər. İşçiləri ilə birlikdə belə bir şöbə yaradılsın. Amma hətta o olmasa belə, biz daxili imkanlar hesabına o şöbədən bir nəfər, bu şöbədən bir nəfər, belə komplektləşdirərək bu şöbəni yarada bilərik. Burada hüquqşünaslar və dil sahəsində mütəxəssis olan insanlar birləşər. Qanunlar onların ekspertizasından keçər və gələcəkdə burada bu ixtisasların kəsişmə nöqtəsində olan mütəxəssislər də yaranar. Dilçi hüquqşünaslar, hüquqşünas dilçilər ki, bunlar həm o sahədə, həm də bu sahədə faydalarını verə bilərlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Rafael müəllim. Ancaq bu qanun layihələri bizə gəlməmişdən əvvəl artıq linqvistik bir ekspertizadan keçir. Sadəcə, burada, bəli, tamamilə haqlı olaraq, hörmətli həmkarlar, Siz də daxil olmaqla, hansı isə məqamlara toxunursunuz və öz təkliflərinizi verirsiniz. Biz təzədən bunu göndəririk, bir də orada baxırlar. Mən Sizinlə razıyam. Hüquqşünasların dili, belə deyək, çox çətindir və hüquq dili də çətindir. Mən hələ keçən dəfə, bilmirəm, nə zamansa, keçmiş iclaslardan birində dedim ki, qanun layihəsini insanlara çox sadə dillə izah etmək lazımdır. Çox sağ olun, Rafael müəllim.

Hikmət Məmmədov. Hikmət müəllim, sualınız, təklifiniz? Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, sadəcə, bir arayış vermək istəyirəm. Azərbaycan dilinin leksik fondunda "usluqa" sözü də, "slujba" sözü də "xidmət" kimi təqdim olunur. Yəni bizim dilimizdə "slujba"nı və "usluqa"nı, ruslarda olduğu kimi, ayrıca ifadə edən söz yoxdur. Hər ikisi xidmətdir. Ona görə mən düşünürəm ki, termin yerindədir. Diqqətinizə görə sağ olun.

**Rafael Hüseynov**. Elə deyil axı. Burada söhbət o xidmətdən, "slujba"dan getmir. Burada söhbət müvafiq icra hakimiyyəti orqanının görüləcək işin keyfiyyətinə dair bu meyarları müəyyən etməsindən gedir. "Hakimiyyət orqanının xidmətin keyfiyyətinə dair müəyyən etdiyi tələblərə" – belə olmalıdır, qayda budur. Burada xidmətdən söhbət getmir. Məhz görüləcək işin keyfiyyətinə dair meyarlardan söhbət gedir.

**Sədrlik edən.** Çox sağ olun. Siyavuş müəllim, Sizin də sualınız var, yoxsa nəsə təklifdir? Buyurun.

**Siyavuş Novruzov.** Təklifim odur ki, səsə qoyaq. Bunların heç birinin ikinci oxunuşa aidiyyəti yoxdur.

**Sədrlik edən.** Yox, ikinci oxunuşun tələblərinə aidiyyəti olan hansı isə düzəlişlər var. Ancaq burada müxtəlif fikirlər səslənir. Mən düşünürəm ki, buna elə komitə iclasında, ya da fərdi olaraq işçi qaydada sonra baxmaq olar. Erkin müəllim, Siz nə deyirsiniz? Buyurun.

**Erkin Qədirli**. Yox, daha heç nə istəmirəm. Mən, əslində, israr etmirəm. Əgər səsə qoymaq təklifi varsa, səsə qoyaq. Sadəcə, hüquq terminləri ilə bağlı maraqlı söhbət getdi. Dedim, mən də töhfəmi verim. Amma ikinci oxunuşa aidiyyəti yoxdur. Ona görə israr etmirəm.

**Sədrlik edən.** Siz çox yaxşı bir söz dediniz. Dediniz, maraqlı bir söhbət getdi. Dərd burasındadır, burada biz qanunu müzakirə edirik. Maraqlı söhbətlə məşğul deyilik. Maraqlı söhbət etmək istəyirsinizsə, xahiş edirəm, iclasdan sonra gedin, bir stəkan çay için, mən həmişə deyirəm, dəyirmi masa düzəldin, orada da hamınız öz fikrinizi bildirin. Çox sağ olun.

Hörmətli həmkarlar, saat artıq ikiyə işləyib, prosedur üzrə...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fasiləsiz? Çox sağ olun.

Hörmətli həmkarlar, biz qanun layihəsinin maddələr üzrə səsverməsinə keçirik. 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

Qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Mən indi hörmətli Musa müəllimdən xahiş edirəm. Musa müəllim, buyurun, məlumat verin.

**Musa Quliyev**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Qanun layihəsi barədə birinci oxunuş zamanı Məclisə ətraflı məlumat verilmişdir. Birinci oxunuşda səs verərək qanunu dəstəkləyən bütün deputat həmkarlarımıza komitəmizin minnətdarlığını bildirirəm. İkinci oxunuş zamanı komitəyə heç bir təklif daxil olmamışdır. Qanun layihəsinin mətnində dəyişiklik yoxdur və ikinci oxunuşda səs verməyinizi xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Həmişə olduğu kimi, konkret, lakonik məlumat verdiniz. Çox sağ olun. Hicran xanım, sizin komitənizin rəyini bilmək istəyirik. Buyurun.

**Hicran Hüseynova**. Çox sağ olun, xanım sədr. Musa müəllim elə birinci dəfə də, bu gün də çox ətraflı məlumat verdi. Ümumiyyətlə, ölkəmizdə həssas və risk qruplarından olan insanların hüquqlarının qorunması, sosial müdafiəsinin gücləndirilməsi hər zaman prioritetdir. Bu sahədə mövcud qanunvericilik üzrə davamlı islahatlar aparılır və

təqdim olunan qanun layihəsi də buna bariz nümunədir. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş, habelə onların arasından olan şəxslərə ilk dəfə işə düzələn zaman birdəfəlik müavinətin verilməsi sahəsində edilən bu dəyişiklik səmərəli sosial təminat prinsipinin tətbiq edilməsi istiqamətində müsbət bir addımdır. Bizim komitəmizdə ikinci oxunuşda da baxılmışdır. Xahiş edirəm, heç bir əlavə rəy və təklif olmadığından səsə qoyasınız.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi. Yazılan var idi. Razi Nurullayev. Razi müəllim, sualınız, təklifiniz? Buyurun.

**Razi Nurullayev**. Təşəkkür edirəm, xanım sədr. Gözəl layihədir, gözəl dəyişiklikdir. Yaradanlara, təqdim edənlərə təşəkkür edirəm. Diqqətimi bir məsələ çəkdi. Əvvəlki redaksiyada 5 mislindən az olmayan miqdarda birdəfəlik müavinətdir. Bu, arayış hissəsində 5017.5 manat göstərilir. Yeni redaksiyada bu, icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə birdəfəlik müavinət kimi göstərilir. Arayış hissəsində isə yazılır ki, bu, 6000 manat olacaq. Bu 6000 manatın kökü haradadır? Eyni zamanda, burada

yeni redaksiyada olan hissədə bunun fiks rəqəm olduğu gərək göstərilsin. Bu 6000 rəqəminin kökü haradadır, bunu bilmək istəyirdim. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Arzuxan Əli-zadə. Arzuxan müəllim, buyurun.

**Arzuxan Əli-zadə**. Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, mən də elə Razi müəllimin dediyi məsələyə münasibət bildirmək istəyirdim. Əvvəlki redaksiyada aşağı hədd göstərilibdir, orta əmək haqqının 5 mislindən az olmayan miqdarda. Amma yeni redaksiyada bu məsələ müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın üzərinə qoyulur. Düzdür, arayışda 6000 manat məbləği göstərilir, amma hesab edirəm ki, yeni redaksiyada da ən azından aşağı hədd qoyulmalıdır, "orta əmək haqqının 5 mislindən az olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən müəyyən edilir". Belə isə əlavə sual yaradır ki, o orqan həmin məbləği hansı əsas üzərindən götürəcək.

**Sədrlik edən.** Çox sağ olun. Musa müəllim, suallar oldu. Buyurun.

**Musa Quliyev**. Mən çıxış edən və sual verən hər iki həmkarıma minnətdarlığımı bildirirəm. Amma görünür, birinci oxunuş zamanı ya zalda olmayıblar, ya da fikir verməyiblər. Biz bu barədə konseptual baxımdan ətraflı demişdik. Məsələ bundadır ki, bu qanun qəbul olunub 1999-cu ildə. O zaman orta aylıq əməkhaqqı 45 manatdan aşağı idi. Ona görə də o aşağı hədd qoyulmuşdu ki, ondan aşağı olmasın. Amma indi orta aylıq əməkhaqqının 3 misli 5017 manat edir.

Digər tərəfdən, indi artıq "Normativ hüquqi aktlar haqqında" Qanun qəbul olunandan sonra bütün vergilər-

dir, müavinətlərdir, cərimələrdir və sair daha çox konkret rəqəmlərlə ifadə olunur. Bu sosial müavinət də cənab Prezidentin sərəncamları ilə vaxtaşırı indeksləşdirilərək artırılır. Mən qanunun birinci oxunuşu zamanı da demişdim ki, bu qanun qəbul olunandan sonra "Sosial müavinətlər haqqında" Qanunda dəyişiklik olunacaq. Məhz bu müddəa o müavinətlərin içərisinə daxil olacaqdır. O zaman "Sosial müavinətlər haqqında" Qanun olmadığına görə, bu, açıqda, havada qalmışdı. Buna görə də indiki mövcud 5017 manatdan 6 min manata qaldırılması uşaqlara dövlətimizin və cənab Prezidentin qayğısının bir ifadəsidir. Xahiş edirəm, səsə qoyasınız. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Bu təkrarın da öz faydası var. Siz onu hamımız üçün bir daha xatırlatdınız.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Səsverməyə keçirik. Qanun layihəsi iki maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.
2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 110 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Qanunda və digər 6 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair komitənin üzvü hörmətli Əminə xanım Ağazadə məlumat verəcək. Sözü Əminə xanıma verirəm. Buyurun.

**Əminə Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar, birinci oxunuş zamanı qanun layihələri barədə ətraflı məlumat verilmişdir, müzakirələr aparılmışdır. Hər hansı bir dəyişiklik olmadığından, olduğu kimi səsə qoyulmasını və həmkarlarımızın dəstəkləmələrini xahiş edi-

rəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əminə xanım. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən var. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli deputatlar. Birinci oxunuşda hörmətli Əminə xanım qanun layihəsini ətraflı şəkildə təqdim etdi. Təbii ki, səs verəcəyik.

Peyğəmbərimiz Məhəmməd Mustafanın gözəl bir sözü var, deyir: "Alimin qələminin mürəkkəbi şəhid qanına bərabərdir". Yaxud "Bir gün elmlə məşğul olmaq 40 il ibadətdən artıqdır". Burada, bu qanun layihəsində də alimlərin, elm adamlarının ayrı-ayrı hüquq mühafizə orqanlarının strukturlarına cəlb olunması təqdirəlayiq haldır. Hesab edirəm ki, nə qədər bu cür insanlar bu strukturlarda olacaqsa, işləyəcəksə, oranın elmi göstəriciləri də, qanunların ədalətli həyata keçirilməsi də, haqqın, ədalətin düzgün yerinə yetirilməsi də layiqincə olacaqdır.

Amma, hörmətli Sahibə xanım, bu ikinci oxunuşun tələblərinə uyğun olaraq, mən bir tədqiqat işi də apardım, baxaq, görək, bir nə var, biz kimləri cəlb edirik. Xüsusi ilə

prokurorluq orqanlarında göstərilir ki, işə götürülmədə elmlər doktoru, yəni fəlsəfə üzrə doktor deyil, köhnə dədə-baba qaydasında olan elmlər doktorları müsahibə götürülmədən və staj keçmədən bu strukturlara qəbul olunurlar. Təbii, biz bilirik ki, bunu prokurorluq orqanlarına tətbiq edən kimi, digər hüquq mühafizə orqanları da öz nizamnamələrində bunu tətbiq edəcəklər. Daxili İşlər Nazirliyi də, Dövlət Sərhəd Xidməti də, götürək ki, Dövlət Gömrük Komitəsi də, Dövlət Vergi Xidməti də və digərləri də. İndi biz baxaq, görək, bizim buna potensialımız varmı? Bunu biz hesablamışıqmı?

Ali Attestasiya Komissiyasının 2023-cü il üzrə hesabatına əsasən Azərbaycanda 7069 nəfər elmi dərəcəsi olan insan diplom alıbdır, yəni müxtəlif elm sahəsində alimdir, üləmadır və digərləridir. Bunlardan 1343 nəfəri elmlər doktoru, 5726 nəfəri fəlsəfə doktoru, yəni elmlər namizədidir. 2023-cü ildə 99 nəfər elmlər doktoru elmi dərəcəsi alıbdır. Onun təxminən 40 faizi, 32 nəfər filologiya sahəsinə düşür. Hüquq sahəsində cəmi 4 nəfər doktorluq dissertasiyası müdafiə edibdir. İndi biz 4 nəfərlə prokurorluq sistemində və yaxud digər hüquqi sahələrdə elmi potensialı artırırıq, bunlar hesablanır. Burada göstərilən elmlər doktoru sayının içərisində çoxluq təşkil edən filologiyadır, tarixdir, sonra dəqiq elmlərdir, tibb elmləridir və sairdir. Hüquq burada azlıqda olan sahədir. Hətta Bakı Dövlət Universitetində bu gün hüquq üzrə 27 nəfər elmlər doktoru çalışır. Bizim hüquq sahəsində olan ən böyük elm ocağımızdırsa, burada cəmisi 27 nəfərdir, 71 nəfər də fəlsəfə üzrə doktordur.

Digər bir məsələni nəzərə alaq. Hörmətli Sahibə xanım, hüquq mühafizə orqanlarına 30 yaşına qədər insan cəlb

olunur, 30 yaşından sonra onları qəbul etmirlər. Bu gün Azərbaycanda cəmi 7 nəfər 50 yaşından aşağı elmlər doktoru var. Yerdə qalan elmlər doktorlarının hamısı 65, 75, 90, 95 yaşlarındadır. Bunlar da yəqin prokurorluğa gəlib ərizə verməyəcəklər ki, təzədən orada işləsinlər. O baxımdan bunu nəzərə alsaq, 7 nəfərin içərisindən gərək bunları tapaq ki, hüquq mühafizə orqanlarının hərəsinə bunlardan birini işə götürək.

Başqa bir məsələ. Bilirsiniz ki, biz gələcəkdə Ali təhsil haqqında qanun qəbul edəcəyik. İndi bir neçə dəfə bizim iş planlarımızda olmuşdu və sair. Bizdə Təhsil haqqında, Ali təhsil haqqında qanunların həmişə başı bəlalı olur. Xatırlayıram ki, "Təhsil haqqında" Qanunu 20 ilə qəbul etdik. İndi bir 20 ilə də Ali təhsil haqqında qanunu qəbul edərik-etmərik. Lakin orada da əgər biz dünya sisteminə keçiriksə, əgər biz deyiriksə, məktəbdə Boloniya sisteminə keçmişik və burada da biz bu sistemə keçiriksə, dünyada fəlsəfə üzrə doktor, ayrıca elmlər doktoru anlayışı yoxdur. Bütün postsovet məkanını mən araşdırmışam. Postsovet məkanında, hətta Qırğızıstanda belə bu gün bu adlar yoxdur. Bu adlar ləğv olunubdur, yeni vahid bir sistemə keçiblər. İndi o yaxşıdır, ona keçək, bu yaxşıdır, buna keçək, bunu alimlər məndən daha yaxşı bilərlər. Amma hər ehtimala qarşı nəticə onu göstərir ki, biz bu qanunu qəbul etsək də, ora hüquq üzrə elmlər doktoru tapıb yerləşdirə bilməyəcəyik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Ancaq qanun bir il üçün, iki il üçün yazılmır. Bu qanun, belə deyək, ömürlük yazılır. Sonra isə hansı isə dəyişikliklər olur. Təbii ki, indi Sizin dediyiniz sözlərdə də həqiqət var. Ancaq mən baxıram, çox böyük araşdırma aparmısınız,

çox-çox böyük araşdırmadır.

Əminə Ağazadə. Buyurun.

**Əminə Ağazadə**. Hörmətli Sahibə xanım, mən qısa olaraq bir məqama toxunmaq istəyərdim. Birincisi, Siyavuş müəllimə qanun layihəsi ilə bağlı söylədiyi fikirlərə görə öz təşəkkürümü bildirirəm. Deməli, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 5-ci maddəsindən söhbət gedir. Yəni burada yeni bir bənd əlavə olunur. Bu şəxslər işə qəbul olunarkən, əgər onların hər hansı bir elmi dərəcəsi varsa, yalnız stajorluq və sınaq müddətindən azad olunurlar. Hər hansı dedikdə prokurorluq orqanları elmlər doktorunu nəzərdə tutur. Onu qeyd edim ki, bu, bir imtiyazdır. Hər bir orqan özü müəyyən edir ki, hansı hallarda bunu tətbiq edəcək. Misal üçün, Daxili İşlər Nazirliyində, ümumiyyətlə, ali təhsili olan, Polis Akademiyasını bitirmiş şəxslər belə sınaq müddətindən azad olunurlar. Gömrükdə elmlər namizədi və elmlər doktoru, Vəkillər Kollegiyasında fəlsəfə doktoru olanlar. Bunu hər bir qurum özü müəyyən edir.

Prokurorluğa qəbul olmaqdan ötrü imtahanlar verilməlidir. Həmin şəxslər bu imtahanları verirlər. Sadəcə olaraq, sınaq və stajorluq müddətindən azad olunurlar. Yenə də deyirəm, bu, imtiyazdır, qurumun özü bu məsələni necə görürsə, qanunvericilikdə elə əksini tapır. Amma mən Siyavuş müəllimlə razıyam ki, gələcəkdə "Təhsil haqqında" Qanunda islahatlar aparılsa, bu norma da artıq özünü doğruldacaq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əminə xanım. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Qanun layihəsinin səsverməsinə keçirik. Maddələr üzrə səs verəcəyik. Bu qanun layihəsində 7 maddə var.

Mən 1-ci, 2-ci və 3-cü maddələri səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, indi isə gəlin qalan 4 maddəyə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 111
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, nəhayət, sonuncu məsələmizə çatdıq. “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Mən yenə də komitənin sədri hörmətli Arzu müəllimə söz verirəm. Buyurun, Arzu müəllim, məlumat verin.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülür.

Birinci oxunuşda elə bir əlavə olmayıb, rəy bildirilməyib. Söhbət, əsasən, kadr hazırlığı, açıq çıxışlar, işə qəbul məsələsi və spesifik olaraq təkcə Müdafiə Nazirliyindən deyil, eyni zamanda, kəşfiyyat və əks-kəşfiyyatla məşğul olan qurumlardan və bunlara maliyyə nəzarətindən gedir.

Layihə komitəmizdə müzakirə olunub və yekdilliklə ikinci oxunuşa tövsiyə edilib. Səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul edək. Buyurun, münasibət bildirək.

**Səsvermənin nəticələri** (saat 13.24 dəq.)

| | |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Əsas kimi qəbul edildi.

İndi isə müzakirəyə keçirik. Yazılanlar var. Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

**Qüdrət Həsənquliyev.** Hörmətli sədr, hörmətli həmkarlar, Məclis iştirakçıları. Biz komitədə bu məsələni müzakirə etmişik və yekdilliklə tövsiyə etmişik ki, ikinci oxunuşda qəbul olunsun. Bu gün "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Qanun qəbul edirik, mən, sadəcə olaraq, bir məsələyə diqqətinizi cəlb etməyi özümə borc bildim.

Bu yaxınlarda Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən milli ayrı-seçkilik salmağa cəhd etdiyinə görə, xalqlar arasında nifaq toxumu səpməyə çalışdığı üçün bir nəfər məsuliyyətə cəlb olunub. Çox təəssüf, bu zaman biz görürük ki, bəzi internet TV-lərdə həmin şəxsin milli mənsubiyyəti önə çəkilir. Bunu o formada təqdim etməyə çalışırlar ki, guya o, hakimiyyətin opponenti olduğu üçün həbs edilib. Əslində, o, hakimiyyətin opponenti deyil, bizim dövlətimizin, xalqımızın birliyinə qarşı olan bir şəxsdir.

Mən bu məsələyə toxunmağı niyə özümə borc bildim? Ona görə ki, mən cəmiyyətdə onun müdafiəsinə qalxanlara ciddi bir təpki müşahidə etmirəm. Əslində, hesab edirəm ki, bizdə xüsusi xidmət orqanlarının, hüquq mühafizə orqanlarının rəhbərlərinə qarşı təhqir, böhtan görü-

rük. Əslində, o adamlar, bu kampaniyanı təşkil edənlər, əsasən, xaricdən idarə olunurlar. Anlamırlar ki, bu yolla həmin hüquq mühafizə orqanlarının iradələrinə, qərarlarına təsir etmək mümkün deyil.

Mən məşhur bir hüquqşünasın bir fikrini xatırlatmaq istəyirəm. Qədim Romada çox məşhur bir hüquqşünas olub, Poponyan. Yəqin ki, onun haqqında çoxlarınız eşitmisiniz. İmperator öz qardaşını hakimiyyət uğrunda qətlə yetirəndə həmin bu Poponyana deyir ki, get, Senatda məni müdafiə et. O da imperatora deyir ki, bilirsiniz, bu məsələ qardaşı qətlə yetirmək qədər asan məsələ deyil. Yəni izahı budur ki, belə ağır cinayətə haqq qazandırmaq onu törətməkdən daha mənfur bir cinayətdir.

İndi bizdə bu formada belə ağır cinayət törədən insanları müdafiə edənlər başa düşməlidirlər ki, onlar, əslində, törədilmiş bu cinayətdən daha mənfur bir cinayət törədirlər və ona görə də bunların əməlləri qətiyyətlə pislənilməlidir. Düzdür, bu sözünə görə o zaman Poponyanın özünü edam edirlər. Amma mən bunu ona görə xatırladıram, tarixdə fransızlar Poponyan haqqında deyirdilər ki, ona qədər nə belə hüquqşünas dünyaya gəlməyib, nə də ondan sonra belə bir hüquqşünas olmayacaq. Yəni bizim də Mülki Məcəllədə istifadə etdiyimiz Napoleon Mülki Məcəlləsinin əsası da onun ideyaları, fikirləri əsasında formalaşıb. Yəni baxın, tarixdə bu qədər tanınmış hüquqşünaslar belə cinayətə haqq qazandırmağın nə qədər mənfur bir əməl olduğunu söyləyiblər. Çox təəssüf ki, bizim bir çox soydaşlarımız...

Bunların iqtidara qarşı münasibətləri, əlbəttə, neqativ ola bilər, ayrı-ayrı hüquq mühafizə orqanlarını da tənqid etmək olar. Amma dövləti məsələlərdə belə bir mövqenin

sərgilənməsi yolverilməzdir. Mən bu məsələni ona görə parlament tribunasından səsləndirdim ki, cəmiyyətimiz belələrinə qarşı daha dözümsüz olmalıdır. Qeyd etdiyim dövlət orqanlarına ictimai dəstək ifadə olunmalıdır və bu cür əməllər də qətiyyətlə pislənilməlidir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli Rafael müəllim söz istəyir. Buyurun.

**Rafael Hüseynov.** Təşəkkür edirəm. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Qanunda ediləcək dəyişiklikləri müsbət qiymətləndirirəm. Qanunu daha da təkmilləşdirir, cilalayır.

Ancaq 18-ci maddədə əlavə edilən 18.6-cı bəndlə əlaqədar bir fikrim var. İstənilən qanunun, istənilən layihənin əsas üslub, dil baxımından vacib şərti lakoniklik, artıq sözlərdən imtinadır. Çünki hansısa artıq ifadə, artıq söz olanda biz Anlayışlar hissəsində onun hüquqi anlayışını da açmalıyıq.

Burada belə bir hissə var. Əvvəlini oxumuram, sadəcə, ortasını oxuyuram: "kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə əlaqədar ayrılan vəsaitin istifadəsi üzərində maliyyə nəzarəti (kənar dövlət maliyyə nəzarəti istisna olmaqla) tədbirləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir". Düşünürəm ki, burada "tədbirləri" sözünə ehtiyac yoxdur. Çünki maliyyə nəzarəti tədbirləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir. Burada hər şey aydındır. Biz "maliyyə nəzarəti tədbirləri" deyəndə onda bu tədbirlərin mahiyyətini Anlayışlar hissəsində açmalıyıq. Ehtiyac yoxdur, orada nəzarətin nə olduğu izah edilir və qanun artıq sözdən də xilas olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Rafael müəllim. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Səsverməyə keçirik. Qanun layihəsində 5 maddə var.

İndi 1-ci və 2-ci maddələrə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi isə xahiş edirəm, qalan 3 maddəyə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bunlar da qəbul edildi.

İndi isə qanun layihəsini mən ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 113 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı barədə sizə məlumat veriləcək. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***1 noyabr 2024-cü il***

**Jalə Əliyeva.** Bundan tam 21 il əvvəl – 2003-cü il oktyabrın 31-də xalqın inamı və etimadı ilə ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev andiçmə mərasimində bildirmişdi ki, hər bir azərbaycanlının prezidenti olacaq, Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq qalaraq Azərbaycanın qarşısında duran bütün vəzifələri yerinə yetirəcək, taleyüklü problemimiz olan Qarabağı erməni tapdağından azad etmək üçün çalışacaq.

İlham Əliyev fəaliyyətinin ilk günündən həyata keçirdiyi uğurlu daxili və xarici siyasətlə qısa zaman içərisində vədlərinə əməl etdi. Bütün uğurlu fəaliyyətini bir nömrəli müqəddəs missiyası olan torpaqlarımızın azad edilməsinə yönəltdi, bir tərəfdən, ölkənin iqtisadiyyatını gücləndirdi, digər tərəfdən, peşəkar ordu yaradaraq tarixi Zəfərə – Azərbaycanın bütövlüyünə imza atdı. O, ata vəsiyyətinə əməl edərək layiqli oğul, xilaskar Prezident, müzəffər Ali Baş Komandan kimi adını əbədi olaraq tarixə yazdı.

Prezident İlham Əliyev dörd il əvvəl savaş meydanında olduğu kimi, indi də böyük Zəfərdən keçən dörd il ərzində rəhbərliyi altında işğaldan azad edilmiş torpaqlarımızda, quruculuq meydanında müqəddəs missiyasını davam etdirir.

Tarixi Qarabağımız yeni sima qazanmaqda, abad və firavan məkana çevrilməkdədir. Böyük Qayıdış baş tutub. Vətəndaşlarımız öz tarixi yurdlarına qayıdırlar. Bölgədə həyat qaynayır.

İlham Əliyev müstəqil Azərbaycanı 21 il ərzində qüdrətli dövlətə çevirdi. Məhz onun sayəsində Azərbaycanın dünya səhnəsindəki yeri və nüfuzu getdikcə daha da güclənir. Bu gün dünya ölkələri məhz onun yaratdığı reallıqlarla barışmağa məcburdurlar.

Bu gün durmadan bölgənin parlayan ulduzuna çevrilən Azərbaycan məhz Prezident İlham Əliyevin sarsılmaz iradəsi, "dəmir biləy"i ilə ən yüksək zirvələri fəth edir.

Xalqı qarşısındakı bütün vədlərini ləyaqətlə yerinə yetirən, Azərbaycan və dünya tarixinə silinməz imzasını atan Prezident İlham Əliyevin ilk dəfə prezident kürsüsünə qalxdığı gündən bəri onunla birlikdə bütövlüyünə, suverenliyinə doğru inamla irəliləyən və məhz onun sayəsində arzularına qovuşan hər bir Azərbaycan vətəndaşını bu gün münasibəti ilə bir daha təbrik edir, möhtərəm Prezidentimizə xalqı ilə birlikdə inamla irəlilədiyi bu yolda bitməz-tükənməz güc və enerji arzulayırıq.

**Mahir Süleymanlı.** Hörmətli Sahibə xanım, bugünkü ilk çıxışımda Sizi Milli Məclisin sədri seçilməyiniz münasibəti ilə bir daha təbrik edir, Siz başda olmaqla VII çağırış Milli Məclis üzvlərinin hər birinə fəaliyyətində uğurlar arzulayıram. Qürurvericidir ki, Sizin rəhbərliyiniz altında Milli Məclisdə 4 ildən çox müddətdə fəaliyyət göstərmişəm və artıq fəaliyyətimi Milli Məclisin deputatı olaraq davam etdirəcəyəm. Memarı və qurucusu Ümummilli Liderimiz Heydər Əliyev olan müstəqil Azərbaycan parlamentinin deputatı olaraq üzərimə düşən məsuliyyəti dərk edirəm və seçicilərimin mənə göstərmiş olduğu etimadı doğrultmaq üçün bacarıqlarımı və səylərimi əsirgəməyəcəyəm.

31 oktyabr tarixi Azərbaycan üçün əlamətdar günlərdən

biridir. Belə ki, dövlətimizin başçısı Prezident İlham Əliyev 2003-cü il oktyabrın 31-də vəzifəsinin icrasına başlayıb. Ölkəyə rəhbərlik etdiyi gündən verdiyi hər bir qərarı, təşəbbüsü və addımı ilə Azərbaycanın mənafeyini, nüfuzunu və inkişafını düşünən, həm hərbi, həm də siyasi qələbələrin memarı olan Prezident İlham Əliyevin adı Azərbaycanın suverenliyini bərpa edən dövlət başçısı kimi tarixə qızıl hərflərlə yazılıb. Azərbaycanı ərazi bütövlüyünə qovuşduran, xalqımızı dünyada mübariz, döyüşkən və qalib xalq olaraq tanıdan müzəffər Ali Baş Komandanımızla Azərbaycan xalqı bu gün qürur duyur və dövlətimizin başçısının fəaliyyətini yüksək dəyərləndirdiyini isə cənab Prezidentin yanında olması ilə ifadə edir.

Cənab Prezidentin beynəlxalq miqyasda qazandığı ən böyük uğurlarından biri də COP29-un Azərbaycanda keçirilməsidir. Dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-un Azərbaycanda keçirilməsi Qoşulmama Hərəkatına sədrliyimiz və BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Bu, müdrikcəsinə siyasət yürüdən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin növbəti parlaq və təntənəli qələbəsidir. Azərbaycan dövlətinin gücünü göstərən bu mötəbər tədbirin ölkəmizdə keçirilməsi həm də Azərbaycanın dünya dövlətləri arasında gündən-günə artan nüfuzunun göstəricisidir.

Onu da qeyd edim, COP29-la bağlı əhali arasında maarifləndirmə işlərinin aparılması məsələsində biz deputatların üzərinə də bir öhdəlik düşür ki, seçicilərlə keçirdiyimiz görüşlərdə bu mövzunun aktuallığını nəzərə alır və əhaliyə bu mötəbər tədbirin ölkəmizə verəcəyi

töhfələr barədə geniş və ətraflı məlumatlar veririk.

* * *

Hər birimiz yaxşı bilirik ki, ölkəmizdə uşaqların sağlam böyüməsi, yüksək səviyyədə təhsil alması, layiqli bir vətəndaş kimi formalaşması, asudə vaxtlarının səmərəli təşkil olunması hər zaman dövlətimizin diqqət mərkəzində saxlanılır və bu istiqamətdə müvafiq layihələr həyata keçirilir, qanunlara əlavə və dəyişikliklər olunur və sair. Bütün kateqoriyalardan olan uşaqlarla yanaşı, valideyn himayəsindən məhrum olmuş və valideynlərini itirmiş uşaqlar da daim dövlətin qayğısı ilə əhatə olunurlar.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onların arasından olan şəxslərin sosial müdafiəsi üzrə dövlət təminatının məzmununu, tədbirləri müəyyən edən, həmin təminatın verilməsi və həyata keçirilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyən "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ən mütərəqqi qanunlardan biridir. Bu gün müzakirəyə çıxarılan qanun layihəsində valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara ilk dəfə işə düzələn zaman birdəfəlik müavinətin ödənilməsi əks olunubdur. Bu da dövlətimizin bu kateqoriyadan olan şəxslərə göstərdiyi diqqət və qayğının növbəti göstəricisidir. Mövcud reallıqları təhlil etməklə hazırlanmış bu qanun layihəsini müsbət qarşılayıram və bu qanun layihəsinə səs verəcəyəm.

**Sahib Alıyev.** Multimilyarder Bezosla Ukrayna Prezidenti Zelenskinin ötən günlər biri digərindən doğan və bizim regiona yanaşmada da öz mənfi təsirini göstərən

məsələlərdən bəhs edən məqalə və açıqlamaları var ki, o haqda fikirlərimi bölüşmək istərdim. ABŞ-ın eks və mümkündür ki, gələcək Prezidenti Donald Trampın ardınca dünyada ən varlı adamlardan biri olması səbəbindən, heç də ondan az tanınmayan Ceff Bezos da yazdığı bir məqalədə qlobal media funksiyasını yerinə yetirən qəzetlərin əsl üzünü açıb göstərdi ki, onlardan da biri özününküdür.

Bezosun elə həmin qəzetdə, yəni 2013-cü ildən satın aldığı "The Washington Post"da dərc olunan məqaləsinin başlığı elə oradakı media haqda çox şey deyir. Başlıq belədir: "Sərt həqiqət – amerikalılar kütləvi informasiya vasitələrinə inanmırlar".

Biz isə özlərini qlobal media kimi təqdim edənlərə nəinki inanmırıq, onların bu regionla bağlı dərc etdiyi yazıların əksəriyyətinə ikrahla yanaşırıq. Çünki həmin yazıların az qala hər cümləsindən qərəz və saxtakarlıq tökülür. Mən "The Washington Post"dakı cızmaqaralarda bir dəfə də olsun Ermənistanın yeritdiyi işğalçı siyasəti tənqidə rast gəlməmişəm. Əksinə, Azərbaycanı Rusiyaya, Ermənistanı isə Ukraynaya bənzətmək cəhdləri görmüşəm.

Bax, həmin Ukraynanın Prezidenti Volodimir Zelenski hazırda ölkəsinin çox acınacaqlı durumda olduğunu deyir və burada ABŞ-ın bu il üçün vəd etdiyi yardımın ancaq 10 faizini verdiyinin az rol oynamadığını bildirir. Məncə, belə bir reallığın yaranmasında "The Washington Post"un, eləcə də ayrı-ayrı ölkələrin ideoloji işğalında, onların sınaq meydanına çevrilməsində ön cəbhədə yer alan digər qəzetlərin dırnaqarası xidmətləri də vurğulanmalıdır.

Qərbdəki bəlli çevrələrin və onların xidmətindəki kütləvi informasiya vasitələrinin guya parlament seçkisi-

nin demokratik keçirilmədiyini əsas gətirərək Gürcüstanın üzərinə yerimələrinin əsl səbəbi də elə həmin ölkənin Ukraynaya çevrilmək istəməməsi deyilmi? Biz görmürükmü ki, Avropada öz-özünü Qafqazın dırnaqarası kuratoru təyin edən Fransa burada da canfəşanlığı ilə seçilir. Gürcüstanda böhran yaratmağa, bu dost ölkəni bizim regionda bölücü xətlər çəkməyi planlaşdıranların sınaq meydanına çevirməyə çalışanlardan da biri məhz həmin Fransanın yetişdirib ora göndərdiyi şəxsdir.

Yeri gəlmişkən, regionu sülhə yaxınlaşdırmaq yönündə növbəti uğurlu addım kimi qiymətləndirilən Kazan görüşündən sonra Fransanın İrəvandakı səfirinin Azərbaycanı Qərbi Zəngəzurun bir hissəsini ələ keçirməkdə, Ermənistana yeni zərbələr endirməyə hazırlaşmaqda suçlandırması və təkcə özünün deyil, ölkəsinin də boyunu aşan tələblər səsləndirməsi rəsmi Parisin bu regionda, çox yumşaq desək, pozucu fəaliyyətini ortaya qoymurmu? Ona görə də bu yüksək kürsüdən üzümü Ermənistan rəhbərliyinə tutub soruşmaq istəyirəm, əgər, doğrudan da, sülh və əmin-amanlıq içərisində yaşamaq istəyirsinizsə, sizə Fransa kimi havadar lazımdırmı?

## MÜNDƏRİCAT

1 noyabr 2024-cü il ............................................................ 3
Edilməmiş çıxışların mətnləri............................................ 106

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Birinci sessiya
Payız

7-ci cild

1 noyabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  7,0. Sifariş 106. Tiraj 150.